www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8 fevral 2017-ci il Çərşənbə № 28 (6642) Qiymәti 60 qəpik

**Xəbər**

## Bakıda zəlzələ təhlükəsi - seysmoloq danışdı

yazısı səh.13-də

**Gündəm**

### Prezident İlham Əliyevin Belçika səfəri yekunlaşdı-mühüm anlaşma



Dövlət başçısı ilə Avropa Komissiyasının prezidenti Jan-Klod Yunkerin görüşündə Azərbaycan və Avropa İttifaqı arasında yeni əməkdaşlıq və tərəfdaşlıq sənədindən danışılıb; ekspertlər səfəri faydalı sayır

yazısı səh.5-də

### Şəhid əsgərə Milli Qəhrəman adı verildi

yazısı səh.2-də

### Telman İsmayılov "Mossad" agenti olması iddiasından danışdı

yazısı səh.10-da

### Nə Zabrat gölünə yiyə duran var, nə əhaliyə-əməkdaşımız yazır

yazısı səh.14-də

*Qalib Salahzadə:*

### "Bu cür yazılarla Hacı İbrahimin evini yıxdılar..."

yazısı səh.10-da

### "Prezidentin ətrafını tənqid edənlər" iddiasına deputatlardan cavab gəldi

yazısı səh.9-da

### Apteklərdə Avropa istehsallı dərmanların qıtlığı yaranıb

yazısı səh.15-də

### Azərbaycan siyasətçilərindən Quranı avazla oxuya bilən varmı?

yazısı səh.4-də

### "Fatimeyi Zəhra" məscidinin 1 hektar ərazisi necə zəbt olunub...

yazısı səh.15-də

### Birləşmiş müxalifətin toplantısı keçirilib

yazısı səh.4-də

### Düşmənin növbəti hiyləsi: Ermənistanda "sülh yarışı" başladı

yazısı səh.11-də

## Ermənistan və onun havadarları şokda - olan oldu...

# BAKININ DİPLOMATİK QƏLƏBƏSİ - LAPŞİN AZƏRBAYCANA VERİLDİ

Rəsmi Moskvanın təhdid və hədələrinə rəğmən, yəhudi bloggerin ekstradisiyası reallaşdı; məsələ bütünlüklə rəsmi Bakının siyasi iradəsi altına keçir; Azərbaycanın yekun sözü nə olacaq?..




yazısı səh.9-da

## Radikal dindarların aktivləşməsində Eldar Mahmudov izi

Terrorçu qrupların hədəfində olmayan Azərbaycanda ifrat dinçilərin hərəkətlənməsinin pərdəarxası; vaxtilə radikalları tora salıb onlarla əlaqələr quran keçmiş MTN şefinin indi həmin qrupdan özünü həbsdən sığortalamaq üçün istifadə etdiyi iddia olunur

yazısı səh.3-də



### Araz Əlizadənin deputat mandatının ləğvi tələb olunur

yazısı səh.7-də



Ed Roys

### Konqresmendən şok iddia: "İran agentləri Azərbaycana soxulub..."

yazısı səh.6-da



### Jirinovskinin açıqlamalarına Bakıdan sərt reaksiyalar

yazısı səh.8-də




# "Yeni Müsavat" vatsap xəbər xətti yaratdı - "çəkin göndərin"

**"Yeni Müsavat" qəzeti bu gündən etibarən oxucularla daha sıx ünsiyyət qurmaq, xəbər mübadiləsini gücləndirmək üçün vatsap xəbər xətt yaradıb. Dünyada müasir xəbərləşmə prosesinin ayrılmaz parçasına çevrilən vatsapla xəbərləşmə bundan sonra bizim iş prosesimizdə də yer alacaq. Oxucular xəbər, hadisə dəyərində olan foto-video çəkilişləri +99455 610 71 59 nömrəsinin vatsap xəttinə göndərərək, onların saytda işıqlandırılmasını təmin edə bilərlər.**

Gözünüzün gördüyü ilginc olaylar, xəbər dəyərindəki ən müxtəlif hadisələri çəkib, yazıb, eləcə də səsli mesaj şəklində musavat.com saytına göndərməniz mümkündür. Yollanacaq mesajlar üçün ölkə və zaman məhdudiyyəti qoyulmur - dünyanın bütün nöqtələrindən musavat.com saytını izləyən oxucular xəbər əhəmiyyətli hadisələri istədiyi saatda bizimlə paylaşa, xəbərləşmə prosesinin bir hissəsinə çevrilə bilərlər. Yolladığınız materiallar onlayn şəkildə maraqlanacaq və onları cavablandıracaq müxbirlərimiz (məsul əməkdaş Sevinc Telmanqızı) daim xətdə olacaqlar. Amma bunun üçün xəttə zəng etməyə gərək yoxdur, ünsiyyət yazışma şəklində öz həllini tapacaq. Gələn zənglər qəbul olunmayacaq.

"Yeni Müsavat" Media Qrupu bəyan edir ki, bu xəbərləşmə sistemi şikayət məktubları üçün nəzərdə tutulmayıb. Bunun üçün qəzet və saytımızın musavat777@gmail.com ünvanı fəaliyyət göstərir.

Videoçəkiliş zamanı telefonu dik deyil, üfüqi vəziyyətdə tutmanız xahiş olunur. Bu, materialın daha sonra sayt versiyası üçün montajında böyük rol oynayır.

Sizin xəbərlərinizi gözləyirik. Bizə qoşulun və ölkə gündəminin nəbzini bir yerdə tutaq.



# Xarici jurnalistlər Cocuq Mərcanlıda

**Azərbaycanda akkreditə olunmuş xarici KİV nümayəndələri işğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində aparılan minatəmizləmə və tikinti işləri ilə tanış olublar.**

APA-nın XİN-in saytına istinadən yaydığı məlumata görə, jurnalistlərə Qaçqınlar və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Xarici İşlər Nazirliyi, Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) və yerli icra strukturlarının nümayəndələri tərəfindən ətraflı məlumatlar təqdim olunub və jurnalistləri maraqlandıran suallara cavab verilib. KİV nümayəndələri Ermənistanın işğalı nəticəsində Cocuq Mərcanlı kəndinin tamamilə dağıdılması və viran edilməsinin şahidi olublar.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

# Şəhid əsgərə Milli Qəhrəmanı adı verildi

**Çingiz Salman oğlu Qurbanova (ölümündən sonra) Azərbaycanın Milli Qəhrəmanı adı verilib. Azərbaycan Prezidenti İlham Əliyev müvafiq sərəncam imzalayıb.**




Ç.Qurbanova Azərbaycanın Milli Qəhrəmanı adı Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə verilib.

Qeyd edək ki, Ç.Qurbanov 2016-cı il dekabrın 29-da Ermənistan silahlı qüvvələrinin kəşfiyyat qrupunun təxribat-pozuculuq fəaliyyətinin qarşısını alarkən baş vermiş döyüşdə şəhid olub. Onun nəşi Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, aidiyyəti dövlət qurumları tərəfindən beynəlxalq təşkilatlarla aparılmış müntəzəm tədbirlər nəticəsində 2017-ci il fevralın 5-də qarşı tərəfdən alınıb. Ç.Qurbanov fevralın 6-da Qusar şəhərindəki Şəhidlər Xiyabanında dəfn olunub.

## İlhamə Quliyevanın köməkçisi məhkəmə zalından azadlığa buraxılıb

**Fevralın 7-də Bakı Ağır Cinayətlər Məhkəməsində mərhum xalq artisti İlhamə Quliyevanın köməkçisi Mehriban Hüseynovanın cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

APA-nın məlumatına görə, hakim Səbuhi Hüseynovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hökmə əsasən, M. Hüseynova barəsində 1 il 3 ay müddətinə şərti cəza seçilib və o, məhkəmə zalından azadlığa buraxılıb.

Xatırladaq ki, prokuror İlhamə Quliyevanın köməkçisinə 8 illik həbs cəzası verilməsini istəmişdi.

Qeyd edək ki, M. Hüseynova Cinayət Məcəlləsinin 29.180.3.2-ci (külli miqdarda soyğunçuluq etməyə cəhd) maddəsinə əsasən ittiham olunur. O, İ. Quliyevanın şikayəti əsasında saxlanılıb.

İ. Quliyeva ötən il fevralın 25-də dünyasını dəyişib.

## Qızıl Xaç əsirlə bağlı danışıqlara başlayıb

**Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) ermənilərin əlinə düşən Elnur Hüseynzadə ilə bağlı tərəflərlə dialoqa başlayıb.**

BQXK-nın Azərbaycan nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova APA-ya açıqlamasında bildirib ki, BQXK saxlanılan şəxsə baş çəkmək üçün aidiyyəti tərəflərlə ikitərəfli konfidensial dialoq aparır: "Münaqişə nəticəsində saxlanılan şəxslərə baş çəkmə beynəlxalq humanitar hüquq normalarına görə BQXK-nın mandatıdır".

Qeyd edək ki, Azərbaycan vətəndaşı E. Hüseynzadə bir neçə gün əvvəl Talış kəndi istiqamətində naməlum şəraitdə ermənilərin əlinə düşüb.

# Qaraçuxurda məcburi köçkünlər etiraz edir

**Fevralın 7-də paytaxtın Qaraçuxur qəsəbəsində məcburi köçkünlər sosial-iqtisadi xarakterli etiraz aksiyası keçiriblər. Etiraza məcburi Qarabağ köçkünlərinə verilən elektrik enerjisi hesabları səbəb olub.("Turan").**

«Hər bir ailəyə 300 manatlıq hesab verilib», deyə aksiya iştirakçılarından biri AzadlıqRadiosuna bildirib. O qeyd edib ki, qaz olmadığı zaman onlar elektrik enerjisi ilə otaqları qızdırmalı və yemək bişirməli olurlar.

2016-cı il dekabrın 1-nə qədər qaçqınlar qaz, elektrik enerjisi və su ödənişlərindən azad edilmişdilər. İndi isə bu imtiyazlar aylıq 36 manatlıq yardımla əvəz olunub. Bu, xərclərin ödənilməsi üçün kifayət etmir, xüsusən yataqxanalarda, 90-cı illərin əvvəllərində ələ keçirilmiş sanatoriya, pioner düşərgələri və s. binalarında yaşayanlar üçün.

Aksiya iştirakçıları həmçinin onlara mənzil verilməsini və qəza vəziyyətində olan binalardan köçürülməyi tələb ediblər. Yerli hakimiyyət, həmişəki kimi, şikayətlərə baxmağı və lazımi tədbirləri görməyi vəd edib.



# Azərbaycanda işləyən əcnəbilərin sayı 34 min nəfəri keçib

**2017-ci il fevralın 1-nə Azərbaycanda fərdi uçot sistemində qeydiyyatda olan xarici vətəndaşların sayı 34 min 213 nəfərə çatıb ki, bu da ilin əvvəlinə olan göstəricidən 0,8% çoxdur.**

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatında deyilir.

"Bu ilin yanvar ayında Dövlət Sosial Müdafiə Fondunun fərdi uçot sistemində 273 nəfər əcnəbi işçiyə fərdi şəxsi hesab açılıb", - deyə məlumatda bildirilir.

Azərbaycanda fərdi uçot sistemində fərdi şəxsi hesabı olan əcnəbilər 125-dək ölkəni təmsil edirlər.

Onların arasında sayca daha çox olan Türkiyə, Gürcüstan və Rusiya vətəndaşlarıdır.

1 yanvar 2017-ci il tarixinə fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların ümumi sayı 33 min 94 nəfər təşkil edib.

2006-cı ildə DSMF respublikada işləyən əcnəbi vətəndaşların məcburi sosial sığorta üzrə ödənişlərə cəlb olunması prosesinə başlayıb.

## Azərbaycanda "An-178" təyyarələrinin yığılmasına başlanacaq

**"Azərbaycanda "An-178" təyyarələrinin yığılmasına 2018-2019-cu illərdə başlanılması planlaşdırılır".**

Bu barədə Ukraynanın Bakıdakı səfiri Aleksandr Mişenko bildirib.

O xatırladıb ki, Bakı və Kiyev arasında 10 ədəd "An-178" yük təyyarəsinin tədarükü ilə bağlı razılaşma mövcuddur. Səfir əlavə edib ki, Ukrayna tərəfi satış üçün 2 təyyarə hazırlayır, digər 8 təyyarə isə Azərbaycanda yığılacaq.

"Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının sədr müavini Oleq Qladkovski ilə "Azərbaycan Hava Yolları"nın (AZAL) prezidenti Cahangir Əsgərov arasında daimi məsləhətləşmələr aparılır. AZAL artıq modullar və yığım prosesinin olacağı məkanların inşasına başlayıb", - deyə diplomat vurğulayıb. ("Report").

## Bakı dairəvi yolu çökə bilər

**Bakı dairəvi avtomobil yolu çökə bilər. Artıq yolun salındığı yamacda dərin yarğan əmələ gəlib və böyük bir ərazidə torpaq aşınaraq sürüşüb.**

Bundan əlavə, Yasamal rayonunun kanalizasiya borularının keçdiyi "Qurd qapısı" qəbiristanlığı da təhlükə ilə üz-üzə qalıb. Virtualaz.org xəbər verir ki, illərdir borulardan axan çirkab sular qəbiristanlığın bir hissəsini yuyub və dərinliyi 1-2 metrə çatan yarğanlar əmələ gətirib.

Yaxınlıqda yaşayan sakinlər bildirirlər ki, üzərindən magistral yol salınan dağda çökmə prosesi son 1-2 ildə başlayıb. Əgər çarə edilməzsə, bu, yol üçün təhlükə ola bilər.

"Uzaqdan da görünür ki, artıq çökmə prosesi başlayıb. Bakı dairəvi yolunun aşağısında əvvəllər olmayan dərin yarğan yaranıb. Bunlar son 1-2 ildə yaranıb, əvvəllər yox idi. Əgər qarşısı alınmasa, yol istənilən vaxt çökə bilər. Həm də qəbiristanlığın kanalizasiya borularının keçdiyi hissəsində torpaqda yarğanlar əmələ gəlib. Hətta bəzi qəbirlər də dağılıb. Bu həm də qəbiristanlığın gələcək taleyini sual altında qoyur", - deyə sakinlər bildirirlər.

Qeyd edək ki, kanalizasiya suları borularla axaraq qəbiristanlığın aşağı hissəsində yerləşən əraziyə tökülür. Oradan çirkab suların bir hissəsi yerin altı ilə yaxınlıqdakı göllərə axır. Bir hissəsi isə yığılaraq ərazini bataqlığa çevirir.

YENİ MÜSAVAT
N 28 (6642) 8 fevral 2017

# Radikal dindarların aktivləşməsində Eldar Mahmudov izi




## Terrorçu qrupların hədəfində olmayan Azərbaycanda ifrat dinçilərin hərəkətlənməsinin pərdəarxası; vaxtilə radikalları tora salıb onlarla əlaqələr quran keçmiş MTN şefinin indi həmin qrupdan özünü həbsdən sığortalamaq üçün istifadə etdiyi iddia olunur

**Son 4 ayda Azərbaycanda 9 terrorçu məhv edilib. Daha dəqiqi, onlara qarşı əməliyyat keçirilərkən hüquq-mühafizə orqanları əməkdaşlarına müqavimət göstərdikləri üçün bu şəxslər yerindəcə zərərsizləşdirilib.**

Dünyada yüksəlməkdə olan terror təhdidləri fonunda ölkəmizə qarşı da bu yöndə hədələr artmaqdadır. Bəzən internet üzərindən ölkəmizə yönəlik hədə dolu videomüraciətlər də yayılır. 2 ay ərzində bir neçə belə video paylaşılıb. Bu hədələrin məqsədi, arxasında hansı niyyətlərin dayanması haqda sabiq təhlükəsizlik xidməti polkovniki, təhlükəsizlik üzrə ekspert İlham İsmayılın fikirlərini təqdim etmişdik. Ekspert bildirmişdi ki, Azərbaycan böyük mənada terrorçuların hədəfində deyil, amma beynəlxalq terror təşkilatları bir qayda olaraq müsəlman ölkələrinin hamısını hədəfə götürürlər...

Maraqlıdır ki, 2016-cı ildə Eldar Mahmudovun ləğv edilmiş MTN-ə rəhbərlik etdiyi 11 il ərzində Azərbaycanda bu qədər terrorçu zərərsizləşdirilməmişdi. Bununla bağlı müxtəlif fikirlər səsləndirilsə də, əldə etdiyimiz məlumatlar onu deməyə əsas verir ki, sabiq nazir bir çox sahələri nəzarətinə alıb pul qazandığı kimi, vəhhabi amilindən də ciblərini doldurmaq üçün istifadə edib.

Bunun üçün çox maraqlı iş üslubu seçilib. Vəhhabilərin pullarını almaqla özlərini də təsir altına sala biliblər. Vəhhabi qrupları və bu qruplara üzv olan şəxslərlə bağlı ətraflı informasiya toplayan E. Mahmudovun dəstəsi əsasən onların toplantı və tədbirlərində yeni-yeni görünməyə başlayan gəncləri həbs edib. Bundan sonra həmin şəxsin ailə üzvləri, qohumları ilə əlaqə yaradıb vəziyyətin pis olduğunu deyiblər. "Yuxarıların" istədiyi pulu ödəməsələr, övladlarının uzunmüddətli həbsə göndəriləcəyini söyləyiblər. Beləcə, vəhhabilərin həm pulları əllərindən alınıb, həm də özləri "mahmudovçu"ların nəzarəti altına düşüblər. Vəhhabi qruplarına rəhbərlik edən şəxsləri də həbs etməməklə nəzarət altında saxlayıblar.

Zaman-zaman mətbuatda MTN-in sabiq rəhbərliyinin gizli silahı - radikal vəhhabilərlə bağlantıları barədə məlumatlar geniş yer aldığından bu mövzu üzərində çox dayanmaq istəmirik...



Bir maraqlı məqamı da qeyd edək: Mətbuatda əvvəllər yazıldığı kimi, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovun oğlu İsrafil Abutalıbov da vəhhabidir. Merin oğlu Azərbaycandakı vəhhabilərin əsas sponsoru rolunu da oynayıb. Təbii ki, bunu E.Mahmudov da bilməmiş olmayıb. H.Abutalıbovun oğlunu nəzarətdə saxlayıb, öz adamlarını onun yaxın ətrafına yerləşdirməklə daha radikal düşüncəli dindaşları ilə yaxınlığı, radikal təriqətə maliyyə yardımının göstərilməsi "təmin" edilib.

Oğul Abutalıbov xirtdəyə qədər zibilə batandan sonra isə bütün faktlar, sübutlar Hacıbala Abutalıbovun masasının üzərinə qoyulub. Bu əməliyyatdan sonra Bakı meri Eldar Mahmudovun təsir dairəsinə düşüb, onun şirkətlərinə şəhərin mərkəzində çoxmərtəbəli binalar tikmək üçün icazələr verilib.

Oxşar əməliyyatlar digər məmurlara qarşı da keçirilib və bu əməliyyatlar əksərən sabiq nazirin və ətrafının varlanmasına xidmət edib. İşin gedişində vəhhabilərin özləri də nəzarət altına alınıblar.

Gerçək təhlükə mənbəyi olan radikal dini cərəyanın ölkədaxili artımını maliyyələşdirən və Mahmudovun çətiri altında, ən müxtəlif bizneslərdə onunla ortaq olan vəhhabilərin biznes şəbəkələrinə isə "yaşıl işıq" yandırılıb. Sadalananlar böyük bir prosesin - dini müxalifəti nəzarətdə saxlamaq adı ilə bu sferada törədilən özbaşınalıqların epizodik hallarıdır. Lakin bunlar belə Mahmudov çetesi tərəfindən radikal cərəyanlarla mübarizə əvəzinə, onlardan məmurları ovlamaq üçün tələ kimi istifadə etdiyinin bir nümunəsidir. Digər tərəfdən də, bu faktlar Mahmudovun radikallarla əlaqələrinin haralara qədər gedib çıxdığını göstərir. Ən başlıcası isə Eldar Mahmudov bu gün azadlıqdadır və onunla biznes ortaqlığı olan vəhhabilərlə əlaqələri də qalmaqdadır.

Mümkündür ki, ölkəmizə qarşı atılan addımlarda, vəhhabilərin radikallaşmasında, bir-birinin ardınca hədə videoları yaymalarında Mahmudov faktoru da rol alır.

Azərbaycan böyük mənada terror təşkilatlarının hədəfində deyilsə, onda son vaxtlar bir qrup vəhhabinin aktivləşməsinin digər səbəbləri üzərində düşünməyə dəyər. Sirr deyil ki, Eldar Mahmudov özünü həbsdən sığortalamaq üçün bütün imkanlarından istifadə etməyə çalışıb. Mümkündür ki, onun sağ əli olmuş general Akif Çovdarov və digər sabiq MTN generallarının məhkəmə prosesinin gedişində Mahmudovun həbsi məsələsi yenidən gündəmə gəlib və bunun üçün əsaslar yaranıb. Güman edilir ki, Eldar Mahmudov bu dəfə əlaqələri olan radikal islamçıları hərəkətləndirərək, hakimiyyət dairələrinə "mənim əmrimə tabe olan xeyli radikal vəhhabi var, problem yarada bilərəm" mesajını ötürmək və bu vasitə ilə növbəti dəfə həbs təhlükəsini önləmək cəhdi edir.

❑ **E.HÜSEYNOV**

# İran ətrafında gərginlik - Azərbaycanın önəmi daha da artacaq

## Ayətullah Xameneyi deyib ki, Tramp Amerikanın həqiqi üzünü göstərir; Netanyahu ABŞ-ı İrana qarşı gizli əməliyyatlara və kəşfiyyat müharibəsinə təşviq edə bilər

**Trampın vəzifəsinin icrasına başlaması ilə gündəmə gələn anti-İran ritorikası iranlıların ballistik raket sınaqlarından sonra günü-gündən gərginləşir. Bir çoxları hətta savaş ehtimalından belə danışır.**

Prezident Tramp isə deməkolar ki, hər gün İranla bağlı təhdidli açıqlamalarla çıxış edir. İranı terroru dəstəkləyən dövlət adlandıran ABŞ prezidenti İrana qarşı Obamadan fərqli olaraq amansız olacağını deyir. İrandan da Trampa cavablar var. Ancaq görünən odur ki, mayda prezident seçkilərinə hazırlaşan hazırkı prezident Həsən Ruhani və komandası Trampa qarşı nisbətən yumşaq ifadələrdən istifadə etdiyi halda, ali dini liderin yaxın ətrafı açıq şəkildə qəzəbli notlarla çıxış edir.

Məsələn, xarici işlər naziri Cavad Zərif silahlarını yalnız müdafiə məqsədilə istifadə edəcəklərini, hansısa ölkəyə qarşı savaşa hazırlaşmadıqlarını deyib. Prezident Ruhani isə ABŞ-la nüvə anlaşmasını bölgədə gərginliyin azaldılması üçün bir başlanğıc adlandırıb.

**Ancaq fevralın 7-də Tehranda İran İslam İnqilabının 38-ci ili münasibətilə ordu komandanları qarşısında çıxış edən ali dini lider Ayətullah Xameneyi birbaşa Trampı hədəfə alıb. Ayətullah Xameneyi deyib ki, Tramp Amerikanın "həqiqi üzünü" göstərir:** "Bizim əziyyətimizi azaltdığı və Amerikanın həqiqi simasını göstərdiyi üçün biz ona (Trampa) təşəkkür edirik. Bizim 30 ildən çoxdur dediyimiz Amerikanın hakim idarələrində mövcud olan siyasi, iqtisadi, əxlaqi və ictimai mənəviyyatsızlığı bu cənab seçkilərdən əvvəl və sonra aşkar etdi. 5 yaşında uşağın qoluna qandal vurmaqla Amerikanın iddia etdiyi insan haqlarının gerçək mənasını göstərdi".



Trampa mesaj da göndərən ali dini lider deyib ki, ABŞ-ın yeni prezidentinin hədələri heç kimi qorxutmur. İranlıların 10 fevralda küçələrə çıxıb Trampa cavab verəcəyini deyən Ayətullah Xameneyi xalqı kütləvi aksiyaya çağırıb.

Bu gərginliyin fevralın 15-də baş tutması planlaşdırılan Tramp-Netanyahu görüşündən sonra daha da artacağı ehtimal olunur. Tramp prezident kimi ilk xarici ölkə rəhbəri ilə telefon danışığını İsrailin baş naziri ilə edib və onu Vaşinqtona dəvət edib. Onun ardınca isə Misir prezidenti Əbdülfəttah Sisi Vaşinqtona gedəcək.

Trampın anti-İran ritorikası Netanyahunu da həvəsləndirib. İsrail baş naziri də artıq İrana qarşı yeni mübarizədən danışır. İranlılara telemüraciətindən sonra İsrail hökumət başçısının görüş və danışıqlarında İrana qarşı fəaliyyət daha da güclənib. Yeri gəlmişkən, iki gün əvvəl İsrail qırıcıları Qəzza zolağını bombalayıb. Yəqin ki, gələn həftə Vaşinqtona gedən Netanyahunun portfelində İrana qarşı mübarizə planları yer alacaq. Trampın yəhudilərə olan münasibəti, eləcə də başlatdığı sərt siyasət kursu İranla qarşıdurmanı daha da gərginləşdirəcək. Suriyada hakimiyyət dəyişikliyinin baş tutmaması, Suriya, İraq və Yəməndə İranın dəstəklədiyi qüvvələrin güclənməsi İsrailin İrana qarşı növbəti cəbhə açması üçün əsas səbəblərdən biridir. Amerikalılar İrana qarşı açıq hərbi müdaxiləyə soyuq yanaşırlar, çünki birbaşa toqquşma Amerikanın regiondakı maraqlarını zərbə altında qoya bilər. Lakin İsrail üçün bu şərt yoxdur, yəhudi dövləti onsuz da neçə illərdir İranın dəstəklədiyi güclərlə savaşır. Üstəlik, İran təhlükəsinə qarşı son illərdə ərəb ölkələri ilə İsrail arasında yarı gizli bir yaxınlaşma müşahidə olunur. Böyük ehtimalla Netanyahu Trampı İrana qarşı savaşa deyil, daha sərt embarqo və sanksiya qərarlarına razı salmağa çalışacaq. Eyni zamanda İsrail və ABŞ İrana qarşı 10 il əvvəl olduğu kimi kəskin kəşfiyyat və casusluq müharibəsini yenidən başlada bilərlər.

Xatırladaq ki, məhz o zamanlar ABŞ və İsrail kəşfiyyatı İran ərazisində, eləcə də Yaxın Şərqdə İran maraqlarına qarşı sui-qəsd və terror hücumları törətdi. İranın nüvə alimləri, raket mütəxəssisləri, təcrübəli komandirləri İsrail, ABŞ və ərəb kəşfiyyatının ortaq əməliyyatları nəticəsində öldürüldü. Obama və Həsən Ruhani dönəmində bu əməliyyatlar dayandı və nüvə anlaşması ilə paralel olaraq İsraillə ABŞ arasında soyuq münasibətlər müşahidə olunmağa başladı. Hətta Obama Ağ Evdə Netanyahunu qəbul etməkdən imtina etdi, ABŞ mediası İsrailin Azərbaycan ərazisindən İrana qarşı istifadə etməsi ilə bağlı kəşfiyyat məlumatlarını tirajladılar. Bütün bunlar dəyişən şərtlərin nümayişi idi. Ancaq ABŞ və İran münasibətləri Yaxın Şərqdə münaqişələr səbəbindən daha artıq istiləşmədi və İranın dini və hərbi rəhbərliyi siyasi qanadından fərqli olaraq Amerika ilə yaxınlaşma kursuna zidd oldu.

İndi isə vəziyyət yenidən dəyişir, Tramp bir respublikaçı, qeyri-standart və İsrail dostu olaraq anti-İran ritorikasına köklənib. Açıq müharibə olmasa da, regionda İsrail və ABŞ-ın İranla qarşıdurmasının gərginləşəcəyini gözləmək lazımdır. Bu məsələdə 10 il əvvəl olduğu kimi Azərbaycanın əhəmiyyəti yenidən artacaq. ABŞ hərbiyyəsi və siyasi rəhbərlik İrana qarşı Azərbaycana diqqəti və dəstəyi artıracaq. Bu vəziyyət təbii ki, Tehranda narazılıq doğursa da, Bakı üçün manevr imkanlarını artıracaq.

❑ **Kənan RÖVŞƏNOĞLU**



# Dollar kreditləri - oğurlanan pullar və borclu qalan vətəndaş...

## Ekspertlər bildirirlər ki, problemli kreditlər ciddi şəkildə araşdırılmalı və bank sahiblərinə cinayət işi açılmalıdır

**Ölkə banklarının kredit problemi ciddiliyini qoruyur. Geri qaytarılmayan, problemli kreditlərin həcmi gündən-günə artmaqdadır. Ekspertlər dəfələrlə hökumətə təkliflər versələr də, qaytarılması mümkünsüz kredit portfeli getdikcə böyüyür. Ekspertlər vətəndaşlara və sahibkarlara bankları məhkəməyə verməyi və güzəştlər tələb etməyi məsləhət görürlər.**

**Ekspert Əkrəm Həsənov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, vətəndaşın krediti ödəmə qabiliyyəti yoxdursa, ödəməsin və bankı məhkəməyə verərək güzəşt tələb etsin: "Çünki vətəndaş bir müddət sonra krediti ödəsə də, bank ondan, ödədiyi məbləğdən cərimə faizi tutacaq. Vətəndaşın ödədiyi onsuz da əsas borca, yaxud faiz ödənişinə getməyəcək. Bank ondan qanunsuz cərimə tutacaq, borc qalacaq öz yerində. Əgər vətəndaş krediti ödəmək istəyirsə, bankdan yazılı iltizam alsın ki, ödədiyi məbləğ məhz əsas məbləğə çıxılacaq. Əks halda, vətəndaş ödəməsin, qoy banklar versin məhkəməyə. Əksər hallarda dollar kreditləri müştərilərə aldatma yolu ilə sırınıb. Hətta belə olmayıbsa belə, yenə də qanun deyir ki, şərait əhəmiyyətli dərəcədə dəyişirsə, kredit şərtlərinə dəyişiklik edilir. Vətəndaş banka desin ki, şərtləri dəyişək, banklar buna getmir, kreditləri indiki məzənnə ilə istəyirlər. Bu da artıq ədalətsizdir. Əgər vətəndaş bunu ədalətsiz hesab edirsə, ödəməsin, versin məhkəməyə. Hazırda banklarla əhali arasında müharibə gedir. Banklar vətəndaşlara deyirlər ki, ən son pulunuzu da əlinizdən alacağıq. Banklar çoxsaylı məhkəmələrə verilməlidir. Vətəndaşlar məhkəmə prosesini mümkün qədər uzatmalıdır ki, güclü olan banklar zəifləsin. Çünki onların bu qədər məhkəmə prosesi aparmağa gücü yoxdur. Borcluların 30-40 faizi bunu etsə, bəsdir. Bu halda banklar məcbur olacaqlar əhali ilə dil tapmağa, güzəştə getməyə".

**Qeyd edək ki, bir müddət öncə "Standard&Poor's" (S&P) beynəlxalq reytinq agentliyi yaydığı məlumatda bildirmişdi ki, Azərbaycanın bank sektoru zəif olaraq qalır və mürəkkəb iqtisadi şəraitin təsiri altındadır. Agentlik məlumatında qeyd edib ki, Azərbaycan Mərkəzi Bankının problemli kreditlərlə bağlı statistikası reallığı göstərmir. Agentlik ekspertləri örnək kimi, ötən ilin noyabrını götürüblər:** "Mərkəzi Bankın 2016-cı ilin noyabr ayı üzrə açıqladığı statistikaya əsasən, problemli kreditlərin ümumi kredit qoyuluşlarında payı 9 faizdir. Lakin biz hesab edirik ki, bu rəqəm kiçildilib və problemli kreditlərin real həcmi daha yüksəkdir". Agentliyin ekspertləri qeyd edir ki, manatın baş verə biləcək devalvasiyası bankların fəaliyyətini daha da çətinləşdirəcək. Ötən ilin sonuna problemli kreditlərin həcmi 1 milyard 442 milyon manata çatıb. Bu, 16 milyard 275 milyon manatlıq kredit portfelinin 8,9 faizi deməkdir. Qeyd edək ki, neftin dünya bazar qiyməti aşağı düşməyə başlayanda, bu rəqəm 5 faiz ətrafında dəyişirdi.

**Ə.Həsənov da bildirir ki, banklar problemli kreditlərinin həcmini az göstərirlər:** "Bunu bir neçə səbəbdən edirlər. Əvvəla, problemli kreditlər üzrə yüksək ehtiyatlar yaratmalıdırlar, bu da bank üçün əlavə xərcdir. Digər tərəfdən, problemli kreditlərin xeyli hissəsini bank sahibləri və inzibatçıların özləri yaradıb, yəni faktiki, pulları mənimsəyiblər. Hər şeyi açıb töksələr, barələrində cinayət işi açıla bilər. Nəhayət, problemli kreditlərin həcminin həqiqi göstəricisi bankların müştərilərini qaçırdacaq, çünki belə bankda pul hər zaman bata bilər". Ekspertin sözlərinə görə, kreditlərin əksəriyyəti dollardadır. İndiyədək də əksər dollar kreditləri qayıtmırdı. "Lakin dolların 2 manatdan da çox bahalaşması dollar kreditlərinin, demək olar ki, hamısının qaytarılmasını mümkünsüz edib. Qaytara bilən belə, artıq qaytarmaq istəmir, çünki bunu ədalətsiz hesab edir. Dövlət təcili məsələyə müdaxilə edib tədbirlər görməlidir. İlk növbədə, dollar kreditləri güzəştli məzənnə ilə manata keçirilməlidir" deyə ekspert vurğulayıb.

❑ **Röya RƏFİYEVA**

# Birləşmiş müxalifətin toplantısı keçirilib

## Tofiq Yaqublu: "Effektli bir vaxtda bu aksiyalar keçiriləcək"

**Son aylarda ölkədəki qiymət artımı və iqtisadi böhranla bağlı ölkə müxalifətinin passivliyi, problemlərə etiraz səsini ucaltmaması ictimaiyyət daxilində ciddi müzakirə olunur. Haqlı olaraq, iradlar səslənir.**



Təsadüfi deyil ki, ilk devalvasiyadan sonra iki aksiya keçirən demokratik düşərgə ondan sonra xalqın problemləri ilə bağlı bir dəfə də olsun mitinqlər təşkil etməyib. Etirazlar yalnız kağız üzərindəki bəyanatlar formasında olur. Amma bununla belə, müxalifətin nə zaman tərpənəcəyi müzakirə mövzusu olaraq qalmaqdadır.

**Müsavat başqanının müavini Tofiq Yaqublu "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, imkan düşdükcə müxalifət daim etirazını bildirib:** "İqtisadi kataklizmlər vaxtı, əsaslandırılmamış qiymət artımları olduqda müxalifətin hər dəfə etiraz aksiyası keçirdiyi doğru deyil. Amma zaman-zaman münasibət düşdükcə müxalifət bunu edib. İndi də həmin vəziyyətdir. Müxalifət çox ağıllı, düşünülmüş bir siyasət yeridir. O düşünür ki, bütün atılan addımlar, görülən tədbirlər proseslərlə adekvat olmalı, nəticələr hesablanmalıdır. Ötən ilin sonlarında qiymət artımı baş verdi və sözsüz ki, biz buna müxalifət olaraq, reaksiya verdik. Demokratik düşərgədən tənqidlər gəldi, iqtisadçılar bunu əsaslandırdılar. Bunların ölkədə aparılan məntiqsiz iqtisadi siyasətin nəticəsi olaraq meydana çıxdığı vurğulandı, bu sübut olundu. Eyni zamanda vurğulandı ki, müxalifət bununla bağlı etiraz aksiyası keçirməyi planlaşdırır. Bu məsələ həm Milli Şura, həm də Müsavat Partiyası rəhbərliyində müzakirə olunub. Hədəf kimi bildirilib ki, ən münasib, effektli bir vaxtda bu aksiyalar keçiriləcək. Düşünürəm ki, yaxın gələcəkdə bu mümkün ola bilər və olacaqdır. Söhbət əsasən münasib vaxtı seçməkdən gedir. İqtisadi böhran getdikcə genişlənir, əhalinin daha geniş təbəqələrini əhatə edir, daha çox ciddi sosial narazılıqlar yaranır. Ona görə də aksiyaların olması labüd və qaçılmazdır. Bütün dünyada olduğu kimi, bizdə də hesablanacaq və münasib zaman üçün qərar veriləcək".

**Ölkə müxalifətinin böyük bir kəsiminin təmsil olunduğu Birləşmiş Müxalifətin fevralın 7-də toplantısı keçirilib. İclasda ölkədəki son durum müzakirə olunub.**

**Bu barədə AĞ Partiya başqanı Tural Abbaslı məlumat verdi:** "Ölkəmizdə son günlərdə baş verən məsələlər müzakirə edildi. Araz Əlizadənin sayıqlamalarına etiraz bildirildi. Müsavat Partiyasının qərargahı qarşısındakı aksiya pislənildi. Xüsusi bir qərar qəbul olunmadı. Bəzi məsələlər müzakirə olundu və ictimaiyyətə hələ açıqlanmır. Zamanında bu məsələ də açıqlanacaq".

❑ **Cavanşir ABBASLI**

# Azərbaycan siyasətçilərindən Quranı avazla oxuya bilən varmı?

## Avazın yaxşı gəlir, oxuduğun Quran olsa...

**Sosial şəbəkələrdə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın avazla Quran oxumasını əks etdirən video paylaşılıb. Musavat.com xəbər verir ki, yaxın ətrafıyla, o cümlədən kürəkəni Berat Albayrakla birlikdə camedə ibadət edən prezidentin mükəmməl şəkildə müəzzinlik etməsi, səsinin ahəngi və avazı diqqətləri cəlb edib. Qeyd edək ki, Ərdoğan bundan əvvəl də müxtəlif məkanlarda Quran oxuması ilə diqqəti cəlb edib.**



Qardaş ölkənin bir nömrəli siyasətçisinin müqəddəs Quranı avazla oxuması faktından çıxış edərək Azərbaycan siyasətçiləri sırasında da Quranı avazla oxuyanların olub-olmadığını araşdırdıq.

**KXCP sədri Mirmahmud Mirəlioğlu bildirdi ki, Quranı avazla da oxuya bilir və oxuyub:** "Quranı avazla oxumuşam. Ancaq bu, mənim özüm üçündür, publikaya nümayiş etdirmək üçün deyil.

Ərdoğanın avazla Quran oxumasına gəlincə, Ərdoğan bir də görürsən çox böyük mitinqlərdə deyir ki, Xristofor Kolumb Amerikaya ilk dəfə gedəndə orada minarəli məscidlər görüb. Yeni Ərdoğan nə istəyir deyə bilir və deyə bilər. Ona görə də avazla Quran da oxuyar və özü də bunu nümayiş etdirər. Mən bilmirəm Azərbaycan siyasətçilərindən kimlər Quran oxuyur, kimlər oxuyub və ya ümumiyyətlə oxuyubmu. Quran oxumaq, o cümlədən Quranı avazla oxumaq adamın özünün Allahına bağlılığıdır".

**ADP sədri Sərdar Cəlaloğlu Quranı Azərbaycanca dəfələrlə oxuduğunu, lakin Ərdoğanın oxuduğu kimi ərəbcə və avazla oxumadığını bildirdi:** "Quranı ərəbcə avazla oxumaq üçün dini məktəb təhsilin olmalıdır ki, ərəb dilində də biləsən. Quranı avazla oxuya bilmək üçün ərəb dilini bilmək lazımdır. Ərəb dilini bilməyən insanın Quranı ərəbcədən avazla oxuması mümkün deyil. Ərdoğan dini məktəb oxuyub, səsi də bir az var. Ona görə də Quranı avazla oxuya bilir. Mən Quranı Azərbaycan dilində oxuyuram, lakin ərəb dilində avazla oxunmasına da qulaq asıram. Dünyada Quranı çox möhtəşəm avazla oxuyan qiraət ustaları var ki, onlara qulaq asıram".

**Ümid Partiyasının sədri İqbal Ağazadə isə bildirdi ki, həm bir müsəlman olaraq, həm də ixtisasca şərqşünas olduğu üçün Quranı oxuyub. Ancaq avazla oxumayıb:** "Avazla oxusam belə, bunu siyasi təbliğat məqsədi üçün istifadə etmərəm. Dinin təbliğat məqsədi üçün istifadə olunmasının, hansısa dini ritualın bir göstəri kimi nümayiş olunmasının tərəfdarı deyiləm. Quran oxumaq da, başqa dini ritualı həyata keçirmək də Allahla insanın arasında olan bir şeydir, onu nümayiş etdirməyə mən lüzum görmürəm. Din hər zaman siyasətdən ayrı olmalıdır. Dinin siyasətə gətirilməsi doğru hal deyil".

❑ **E.SEYİDAĞA**

# Prezident İlham Əliyevin Belçika səfəri yekunlaşdı- mühüm anlaşma

## Dövlət başçısı ilə Avropa Komissiyasının prezidenti Jan-Klod Yunkerin görüşündə Azərbaycan və Avropa İttifaqı arasında yeni əməkdaşlıq və tərəfdaşlıq sənədindən danışılıb; ekspertlər səfəri faydalı sayır



**Prezident İlham Əliyevin Belçika Krallığına səfəri başa çatıb. Səfərin sonuncu günü ölkə başçısı Avropa Komissiyasının prezidenti Jan-Klod Yunkerlə görüşüb. President.az saytının məlumatına görə, görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıqdan məmnunluq bildirilib, əlaqələrin bundan sonra da inkişaf etdiriləcəyinə əminlik ifadə olunub. Vurğulanıb ki, Azərbaycanla Avropa İttifaqı arasında yeni əməkdaşlıq və tərəfdaşlıq sənədi üzərində iş gedir və bu sənəd imzalanandan sonra münasibətlər bütün sahələrdə daha da möhkəmlənəcək və genişlənəcək. Söhbət zamanı Azərbaycanın dünya ölkələri, o cümlədən Avropa İttifaqı ilə sivilizasiyalar və mədəniyyətlər arasında dialoq sahəsində çox yaxşı əməkdaşlıq əlaqələrinin olduğu qeyd edilib.**

Qeyd edək ki, səfərin əvvəlki günlərində də prezidentin bir sıra mühüm görüşləri olub. Beləliklə, Avropa İttifaqı ilə Bakı arasında yeni körpülərin atılması baxımından bu səfər uğurlu hesab edilir.

"Ölkə başçısının Belçikaya səfərini Avropada müxtəlif kəşfiyyat strukturları və siyasi mərkəzlər üzərindən idarə olunan qüvvələrin məğlubiyyəti sayır, Azərbaycanın beynəlxalq maraqlarının qorunmasında mühüm səhifə hesab edirəm".

**Deputat Zahid Oruc bu fikirləri prezident İlham Əliyevin Belçikaya səfərini, keçirdiyi görüşləri şərh edərkən "Yeni Müsavat"a söylədi. O bildirdi ki, Qərbin dünyada təhlükəsizlik və iqtisadi arxitekturalar quran paytaxtında, Brüsseldə ən yüksək səviyyələrdə ölkə başçısının qəbul olunması Azərbaycanın vazkeçilməz dövlət statusunun bir daha təsdiqlənməsi deməkdir:** "Bu, hazırki qeyri-müəyyən beynəlxalq münasibətlər şəraitində bu son dərəcə əhəmiyyətli hadisədir. Avropalı liderlər Amerikada yeni administrasiyanın xarici siyasət kursundan çox narahatdırlar. Keçmişdə formalaşan dünya düzəni gözlərimiz önündə çökür və əvəzində sürətlə yeni ittifaqlar yaranır. Üstəlik, Breksitdən sonrakı proseslər Qərbin hansı güc mərkəzlərindən idarə olunmaq istədiyini təyin etməyə imkan vermir. Belə bir şəraitdə avropalı liderlər Qafqazın siyasi mənzərəsini və burada yüz illər dominantlıq edən iqtisadi nəhənglərin maraqlarını neytrallaşdırmağı bacaran bir dövlətin başçısının qlobal layihəsinə-"Cənub Qaz Dəhlizi"nə dəstəklərini ifadə edirlər. Nəzərə alın ki, Transatlantik və yaxud Sakit okeanı hövzəsində Obama dövrünün mirasından imtina baş verib. Belə olan təqdirdə Azərbaycanın Qərbin enerji təhlükəsizliyindəki müstəsna yerini əvəz etmək mümkün deyil. Lakin Tusk və Yunker yaxşı bilir ki, vaxtilə assosiativ sazişlə ərazi bütövlüyünü və suverenliyini itirmiş Ukrayna ilə müqayisədə, yaxud yeni prezident Dodonun hakimiyyətə gəlişi ilə Moskvaya 180 dərəcəlik dönüş edən Moldovanı nəzərə alanda son illər Moskvanın hərbi-siyasi dəstəyini əldə etmiş Bakı Qərblə daha üstün siyasi-iqtisadi şərtlərlə danışıqlar apara bilir".

**Z.Orucun sözlərinə görə, "qonşuluq siyasəti" tamam iflasa uğramasa da, hamını eyni geopolitik hərəkatın içərisinə ala bilməz:** "Keçmiş sovet ölkələrinin mənafeləri bir-birindən kəskin fərqlənir. Ona görə də İlham Əliyev Qərblə açıq və güclü münasibətlər qurmağa qadir olan lider kimi danışıqlar aparır. Bizi Almaniyadan hazır direktivlər vasitəsilə, yaxud Baydenin qovluğu ilə idarə etmək mümkün olmadı. Belə bir şəraitdə, Avroparlamenti anti-Azərbaycan elementlərinin kürsüsünə çevirən Antoni Tayani faktiki olaraq itirdi və daha dar maraqlarının oyunçusuna çevrməklə təmsil etdiyi qurumun siyasi intriqalar və dəhliz müharibələrinin alətinə çevrildiyini gizlədə bilmədi". **Deputat İ.Əliyevin səfəri zamanı aksiya keçirməyə cəhd göstərənlərlə bağlı da fikirlərini bölüşdü:** "Hər halda, Azərbaycan əleyhinə orada petisiya edən bir ovuc hüquq istismarçıları milli və təhlükəsizlik maraqlarımızdan o qədər uzaq düşüblər ki, prezident İlham Əliyevin səfərinin strateji məqsədlərini anlamaqda belə çətinlik çəkirlər. Adamlar az qala Tramp əleyhinə Amerika inqilabı törətməyə hazırdırlar. Yetər ki, klintonların, nulandların liberal demokratiyasının tankları ölkələrin suveren sərhədlərinin yarıb keçsin və avtomat əllərində hakimiyyətləri devirib yeni inqilabi hökumətlər qursun. Yox, islahatları və böyük dəyişilim proqramlarını özü aparan Azərbaycan heç bir paytaxtın diktəsi altında olmadan və Donald Trampın vəd etdiyi 4 illik başqa dövlətlərin daxili işlərinə müdaxilə etməmək siyasətini yüksək qiymət qiymətləndirərək Avropada qurulan məhkəmə səhnələrini onların özlərinin əleyhinə çevirməyi bacardı. Ona görə də Azərbaycan regionda yeni şəraiti yaradan bir dövlət kimi Avropa Birliyi ilə tamamilə fərqli bir "yol xəritəsi" üzərində hərəkət etməyi qərarlaşdırıb. Ümidvarıq ki, qarşıdakı yaxın illərdə bir tərəfdən Azərbaycana 100 milyardlarla dollar gəlir vəd edən və iqtisadi gücünü artıran layihələr bəhrəsini verəcək, eləcə də insanlarımızın Avropaya gedişini asanlaşdıran yeni hüquqi sistemi formalaşdırmaq mümkün olacaq".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bildirdi ki, prezidentin Brüssel səfəri Azərbaycanla Avropa İttifaqı arasında strateji sazişlə bağlı sənədin hazırlanmasına start verdi və hər iki tərəfdən nümayəndə heyətləri danışıqlara başladı. Ekspertə görə, İ.Əliyevin Brüsselə səfəri o deməkdir ki, rəsmi Bakı bu sənədin imzalanması müddətini qısaltmağa hazırdır. E.Şahinoğlu hesab edir ki, Brüssellə strateji sazişin imzalanması rəsmi Bakıya həm də ona görə vacibdir ki, Avropa İttifaqı Azərbaycan qazının əsas alıcısı olacaq:** "İlham Əliyev Brüsseldəki danışıqların hər birində "Cənubi Qaz Dəhlizi" layihəsinə xüsusi önəm verirdi. Bu layihənin dəyəri 40 milyard dollardır". **Politoloq bildirdi ki, Avropa İttifaqı ilə imzalanacaq sənəddə insan haqları və demokratiya mövzularına da diqqət yetiriləcək:** "Təsadüfi deyil ki, Donald Tusk İlham Əliyevlə birgə mətbuat konfransında Azərbaycan prezidenti ilə bu mövzular ətrafında da fikir mübadiləsi apardığını dedi. Avropa İttifaqı ilə strateji əməkdaşlıq sazişi imzalandıqdan sonra Azərbaycan hakimiyyəti söz və fikir azadlığı məsələlərinə həssas yanaşmaq məcburiyyətindədir. Əks halda, Avropa İttifaqının müxtəlif institutları daima Azərbaycanla əməkdaşlıq edən Avropa komissarlarına təzyiq edəcəklər ki, rəsmi Bakıya təsir etsinlər. Beləliklə, Avropa İttifaqı ilə əməkdaşlığın genişləndirilməsi imkanları rəsmi Bakının əlindədir. Rəsmi Bakı üzərinə götürdüyü öhdəlikləri yerinə yetirəcəyi vədini verərsə, Azərbaycan Avropa İttifaqı ilə arasındakı məsafəni qısaldacaq. Məsələn, Gürcüstan bu istiqamətdə atdığı addımlar sayəsində Avropa İttifaqının gürcülərə tətbiq olunan vizanın ortadan qaldırılmasına nail oldu. Azərbaycanın da eyni yanaşmaya ehtiyacı var".

**"Azərbaycanın özündə bir tərpəniş olmasa, Azərbaycan özü üçün bir iş görməsə, kiminlə görüşməkdən asılı olmayaraq, bu kimi təmasların ciddi bir nəticəsi olmaz. Amma Azərbaycan naminə nələrsə etmək kursu götürülsə, yalnız onda nələrəsə nail olmaq mümkündür. Əsas iş görməkdir, Azərbaycanın da bu niyyəti yoxdur. Görüşlərlə məsələ həll olunsaydı, nə vardı ki?"**

**Bunu KXCP sədri Mirmahmud Mirəlioğlu "Yeni Müsavat"a açıqlaması zamanı bildirdi. Partiya rəhbəri ölkə başçısının səfərinə qarşı atılan addımlara da reaksiya verdi:** "Kim ki, Azərbaycanın əleyhinədir, biz də onun əleyhinəyik. Harada ki, Azərbaycan əleyhinə bir şeylər var, biz də hamılıqla ona qarşı olmalıyıq. Amma ayrı-ayrı şəxslərin əleyhinə olmaq məsələsinə fərqli yanaşmaq lazımdır. Yəni dövlətlə insanları eyniləşdirmək olmaz. Təfərrüatı ilə məlumatım yoxdur. Amma bildiyim qədər anti-Azərbaycan məsələləri var, biz bunun əleyhinə olmalıyıq, bu, bizim vətəndaşlıq borcumuzdur". **Rusiyanın Azərbaycana qarşı təzyiqlərinin artdığı bir dövrdə Avropaya inteqrasiyanın sürətləndirilməsi də məqsədəuyğun sayılır. M.Mirəlioğlu:** "Bu məsələ sanki eyni mənbədən qaynaqlanır. Azərbaycan özü üçün müstəqil kurs götürüb, Avropaya doğru addımlar atır, onda da rus təhdidləri artır. Məsələn, hamı elə bilir ki, Jirinovski qeyri-ciddi adamdır, gicbəsərin biridir. Amma elə deyil, Jirinovski hər zaman rus dövlətinin mövqeyini açıqlayır, Putinin geniş dairədə deyə bilmədiklərini deyir. Ona görə də indiki vaxtda Azərbaycan Avropaya inteqrasiya kursundan geri durmayacaq. Eyni zamanda Bakı "rus ayısı"nı da çox qıcıqlandırmayacaq. Rusiya bizə qarşı ənənəvi mövqeyindən imtina etməyəcək. Həm də biz istənilən halda Avropa ilə münasibətlərimizdən geri çəkilməli deyilik".

❑ **E.PAŞASOY**

# Siyasi məhbuslardan xəbər var

## İlqar Məmmədov həbsinin 4 illiyində ailəsi ilə görüşüb; NİDA-çı gənc müalicəsindən narazıdır; Seymur Həzinin vəziyyəti normaldır

**REAL hərəkatının həbsdəki sədri İlqar Məmmədovun fevralın 4-də məhbusluğunun 4 ili tamam oldu. Həmin günü ailəsi onunla görüşüb.**

Görüş barədə REAL sədrinin həyat yoldaşı Vəfa Məmmədova "Yeni Müsavat"a bunları dedi: "Sonuncu dəfə fevralın 4-də İlqarın həbsinin 4 ilində onunla görüşdük. Hal-əhvalı yaxşıdır, sağlamlığı da yerindədir. Baxmayaraq ki, 4 ildir həbsdədir, hər zaman kimi qətiyyətli və iradəlidir. 4 il həm ailə, həm də İlqar üçün ağır keçsə də, ümidimiz ölməyib. Ədalət yerini sonunda tapacaq. İlqarın azadlığa çıxmasına, inşallah, az qalıb. Dözümlü və səbirli olmaq lazımdır. Bizdə də bu çoxdur".

**AXCP sədrinin müavini Seymur Həzinin atası Məşğul Həziyev oğlunun durumunun normal olduğunu bildirdi: "Ötən ayın 29-da görüşdük. Telefonla da tez-tez danışırıq. Vəziyyəti normaldır. Yaxşı demək bir az məntiqsiz çıxır. Çünki həbsxana həyatı yaxşı ola bilməz. Amma indiki halda səhhəti də, özü də pis deyil. Bizə heç zaman ümid vermir. Mart əfvi ilə bağlı bir söz demək olmur. Ola bilsin ki, əfvlə azadlığa çıxsın. Siz də, biz də əfvin olacağını dəqiq bilmirik. Özü daim deyir ki, sağlıq olsun, az vaxtım qalıb".**

**NİDA-çı Əbdül Əbilovun anası Nurcahan Əbilova oğlunun müalicə aldığını, lakin müalicənin ürəkaçan olmadığını söylədi:** "Əbdül müalicə olunur. Müalicəsi çətin gedir. Deyir ki, azadlığa çıxsam, özüm istədiyim müalicəni edərdim.



Səhhətində ağrıları çoxdur. Demək olar hər gün zəng edir. Burada heç bir problem yoxdur. Hamısına hər kəsə salam deyir. Onu axtaranlara çox sevinir və təşəkkür edir. Azadlığa çıxmaq ümidləri hər zaman var. Onun işi bilinmir. İndiyə qədər hər zaman azad olunacağını gözlədik, amma olmadı".

❑ **Cavanşir ABBASLI**

**ABŞ prezidenti Donald Trampın dünyaya twitter vasitəsilə verdiyi mesajlar ciddi maraq mövzusudur. Son illər məhz bu sosial şəbəkədən istifadə edən dünya liderlərinin karvanına qoşulan yeni prezident bununla paralel bir çox qalmaqallara da imza atıb. Bu barədə bir qədər sonra. Hələliksə, Trampla twitter arasındakı "münasibətlərin" tarixinə və detallarına diqqət edək.**

# Trampın sevimli sosial şəbəkəsi - twitter

## O, burdan həm söyür, həm də mesaj yollayır; dünya liderləri twitteri niyə tərcih edir...

Trampın sosial şəbəkə ilə son komik imtahanından başlayaq öncə. Aktiv twitter istifadəçisi olan Tramp qızı haqda yazdığı statusda hiperlink yerinə İvanka Trampın yox, İvanka Majicin adını qoyub. Majic isə prezidentdən ehtiyatlı olmağı xahiş edib. Majic twitterdə Trampa müraciət edib: **"Donald Tramp, siz böyük məsuliyyət daşıyırsız. Mən sizdən xahiş edirəm ki, twitterdə ehtiyatlı olun və daha çox iqlim dəyişiklikləri barədə öyrənin".**




Dünya mediası yazır ki, bu qarışıqlığa səbəb Trampın texnologiya ilə arasının o qədər də yaxşı olmamasıdır. Hətta bu günə qədər Trampın elektron məktub və ya mətn mesajları göndərməməsi, əsasən çap üsuluna üstünlük verməsi də yayılan xəbərlər sırasındadır.

Amma onun twitter vasitəsilə verdiyi ciddi mesajları da yaddan çıxarmayaq. Trampın İraq, İran, Suriya, Sudan, Yəmən, Liviya və Somali vətəndaşlarının 90 gün ərzində ABŞ-a daxil olmasının qadağan edilməsi barədə imzaladığı fərman, habelə qaçqınların ABŞ-da yerləşdirilməsi barədə proqramı 120 gün müddətində dayandırması dünyada ona qarşı ciddi tənqidlərə yol açmışdı. Tramp bu tənqidlərə twitter hesabından iki cümlə ilə cavab verib: **"ABŞ-a möhkəm sərhədlər və hərtərəfli yoxlama lazımdır. Baxın, Avropada, bütün dünyada nə baş verir? Dəhşətli qarışıqlıq var!"**

Tramp twitter hesabında fərmanın icrasını dayandıran hakim Ceyms Robartı "hakim deyilən şəxs", onun qərarını isə "gülünc" adlandırıb. **"ABŞ nüvə silahları sahəsində imkanlarını əhəmiyyətli dərəcədə genişləndirməlidir".** Bu da onun twitter hesabında yazdıqlarıdır. Tramp daha əvvəl bildirib ki, Rusiyanın nüvə potensialı Amerikadan daha böyükdür.

Amma ona da twitter üzərindən sərt sözlər yazanlar olub. 2015-ci ildə Səudiyyə Ərəbistanının şahzadəsi Əl Vəlid bin Talal ABŞ prezidentliyinə respublikaçı namizəd Donald Trampı "Amerikanın üz qarası" adlandırıb. Bu barədə açıqlamasını Ərəbistan şahzadəsi öz twitter hesabından paylaşıb. O, mesajında D.Trampı prezidentlik yarışından geri çəkilməyə çağırıb. Həmin vaxt D.Tramp təhlükəsizlik səbəbi ilə ABŞ-a müsəlmanların girişinin qadağan olunmasını təklif etmişdi və sərt şəkildə tənqid olunmuşdu.

D.Tramp şahzadəyə cavab verərək, onu "axmaq" adlandırıb. O, özü kimi iş adamı olan və dünyanın ən varlı insanları siyahısında 34-cü yerdə qərar tutan Əl Vəlid bin Talalın atasının pulu ilə amerikalı siyasətçiləri yönləndirməyə çalışdığını söyləyib və "Mən seçiləndə belə bir şey olmayacaq", - deyə bildirib.

Amerikanın "The New York Times" qəzeti isə D.Trampın twitter hesabı vasitəsilə təhqir etdiyi şəxslərin siyahısını hazırlayıb. Siyahıda 281 təhqir obyekti qeyd olunub. Təhqir olunanlar arasında təkcə Respublikaçılar və Demokratlar Partiyasının ayrı-ayrı nümayəndələri yox, eyni zamanda KİV-lər, kompaniyalar, hətta bəzən bütöv ölkələr də olub. Məsələn, Tramp Çini "qorxunc ölkə", ABŞ prezidenti Barak Obamanı "zəif və qeyri-effektiv" prezident, "The Wall Street Journal" nəşrini isə "tabloidə bənzər" adlandırıb.

Təhqir olunanlar arasında xüsusi yeri heç şübhəsiz ki, demokratların prezidentliyə namizədi (təbii ki, keçmiş) Hillari Klinton tutur. Tramp bu günə qədər onun ünvanına düz 300 əsəbi tveet həsr edib. Məhz sosial şəbəkədəki bu cür əsəbi tveetlərinə görə məsləhətçiləri ötən ilin 6 noyabrında onu sosial şəbəkədən uzaqlaşdırmışdılar. Belə qərarın verilmə səbəblərindən biri də Trampın sosial şəbəkədə diplomatik davrana bilməməsi və bununla da özünə qarşı xeyli qıcıq yaratmasıdır. O, öz izləyicilərinə bəzi məsələlərlə bağlı "filtrasiya olunmamış" fikirlər yaymağa çalışırdı. Nəşr qeyd edir ki, Trampın mikrobloqu 14 milyona yaxın izləyici tərəfindən təqib edilir.

Bu "virtual diplomatik şəbəkə" elə bir şəkil alıb ki, siyasətçilərin ünsiyyəti üçün daha səmərəli şərait yaradır. Bu şəbəkə həm də vətəndaşlarla ünsiyyətdə misilsiz imkanlar verir. "Tviplomatiya" hesabatı 166 ölkədə dövlət və hökumət başçılarına, habelə nazir və rəsmilərə aid 700-dək hesaba baxıb.

Bəlli olub ki, Obamadan sonra ən populyar siyasi lider Hindistanın baş naziri Narendra Modidir. Onun hesabı 2014-cü il seçkilərindən sonra "kəllə-çarxa" vurub. Onun 18 milyondan artıq davamçısı var. **"Mən insanlarla ünsiyyətdə texnologiya və sosial medianın gücünə qəti şəkildə inanıram"** - Modi özünün inauqurasiya nitqində deyib.

Modi seçki qələbəsindən sonra belə bir tveet yazıb: **"Hindistan qalib gəldi! Yaxşı günlər irəlidədir"**

Ümumən liderlərin twitteri ilə mətbuat müşavirlərinin hər kəlməni ölçüb-biçən ordusu məşğul olur. Bu mənada Estoniya prezidenti Tomas Hendrik İlves istisna təşkil edir. Bir də Norveçin baş naziri Erna Solbergin buraxdığı səhvlərdən görünür ki, postlarını özü yazır. Lakin Argentina prezidenti Cristina Kirçnerin təqibçiləri deyə bilərlər ki, hərf səhvlərindən də ağır cinayətlər mövcuddur. Çinə səfəri zamanı Argentina lideri çinlilərin "r" hərfini tələffüz etməkdə çətinlik çəkdikləri barədə zarafat etmiş və dərhal da irqçilikdə ittiham olunmuşdu.

G7 ölkələrinin liderləri arasında Almaniya kansleri Angela Merkel twittersiz lider kimi istisna təşkil edir. Bəlkə Almaniya kansleri düşünür ki, twitterin 140 sözlük yazı məkanı alman dilinin mürəkkəb isimləri üçün darlıq edə bilər. Onu da demək lazımdır ki, dünyanın heç bir lideri twitter çempionu deyil. İzləyicilərin sayına görə twitterdə ilk iki yeri pop-ulduzları bölüşdürürlər.

Twitter bizim qısa ismarış kimi tanıdığımız SMS xidmətinə çox bənzəyir. O, mobil telefonda olduğu kimi, 140 simvol ilə istədiyinizi yazmağa imkan verir. Ödənişsiz bir xidmət olaraq, twitter istifadəçilərə imkan verir ki, anında dostlarınızla, tanışlarınızla, tanımadığınız və tanıdıqlarınızla əlaqə yaradasınız və hər hansı xəbəri paylaşa biləsiniz. Onun digər özəlliyi ondan ibarətdir ki, bütün məlumatlar elektron poçtunuza və yaxud mobil telefonunuza göndərilə bilir.

❑ **Sevinc TELMANQIZI**




## Konqresmendən şok iddia: "İran agentləri Azərbaycana soxulub..."

### Respublikaçı Ed Roys Tehranın Azərbaycanda hakimiyyət çevrilişi niyyətindən danışıb və bu işlə İnqilab Keşikçiləri Korpusunun məşğul olduğunu bildirib

**ABŞ Konqresinin Nümayəndələr Palatasının xarici işlər üzrə komitəsinin rəhbəri, respublikaçı Ed Roys "İsrael Project" forumu zamanı İranın Azərbaycanın işlərinə müdaxiləsi ilə bağlı sensasion bəyanatla çıxış edib.**

Virtualaz.org komitənin saytına istinadən xəbər verir ki, Ed Roys forumdakı çıxışında əvvəlcə İranın bugünlərdə keçirdiyi ballistik raket sınaqlarına toxunub. O deyib ki, İranın raket sınaqları BMT Təhlükəsizlik Şurasının 2231 saylı qətnaməsinə ziddir və ABŞ administrasiyası Tehranın nəzərinə bu addımın cavabsız qalmayacağını çatdırmalıdır.

Daha sonra konqresmen bildirib ki, İran region ölkələrinə təhdid yaradır. Ed Roys bildirib ki, İranın İnqilab Keşikçiləri Korpusu regional təhlükəsizlik üçün təhdiddir və sanksiyalara məruz qalmalıdır. Konqresmenin bildirdiyinə görə, İran Yəmən, Bəhreyn kimi Yaxın Şərq ölkələrinə təhdid yaradır, husi qiyamçılarını Səudiyyə Ərəbistanına qarşı silahlandırır.

Ed Roys İranın Azərbaycan üçün də "təhdid olduğunu" deyib. Onun sözlərinə görə, bu gün İran agentləri Azərbaycana soxulur, kəndlərdə insanları öz tərəflərinə çəkir, onlara bildirir: "Siz dünyəvi hökuməti niyə dəstəkəyirsiniz? Siz şiələrsiniz. Siz bu rejimi devirməyə çalışmalısınız". Konqresmenin fikrincə, bu fəaliyyətlə məhz İnqilab Keşikçiləri Korpusu məşğuldur.

Xatırladaq ki, Donald Tramp İranı "terrorun bir nömrəli sponsoru" adlandırıb və Obama administrasiyasının İranla bağladığı nüvə sazişini ləğv edəcəyini bildirib.

YENİ MÜSAVAT
N 28 (6642) 8 fevral 2017

# Araz Əlizadənin deputat mandatının ləğvi tələb olunur

**ASDP sədri, deputat Araz Əlizadənin Osmanlı İmperiyası və Nuru Paşa haqqında söylədiyi aşağılayıcı fikirlərə reaksiyalar səngimək bilmir. Simasını bir daha ortaya qoyan deputatın ünvanına cəmiyyətin bütün təbəqələrindən ciddi tənqidlər gəlməkdə davam edir.**



**Fəzail Ağamalı:** "Genetik kodlarının ona diktə etdiyi davranışdır"



**Adil Əliyev:** "Bəzi səy-səy fikirlər söyləyən sapı özümüzdən olan baltalar olmasa..."



**Bəxtiyar Sadıqov:** "Xalqın heysiyyətinə toxunmaqdır"

**Deputat həmkarları tərəfindən də sərt şəkildə qınanır. Son olaraq, millət vəkili Adil Əliyev həmkarını sərt tənqid edib. O, facebook səhifəsində yazıb:** "Son günlər başım kikboksinq çempionatlarına qarışdığı üçün mətbuatda Türkiyə və Nuru Paşa əleyhinə səslənən fikirləri izləyə bilməmişəm. Ancaq bu cür təbliğat aparanlara qısa olaraq belə cavab verərdim. Qəhrəman Nuru Paşa və Qafqaz-İslam Ordusu Türk xalqının qəlbində dərin iz buraxıb. Təəssüflər olsun ki, bəzi səy-səy fikirlər söyləyib, gündəmə gəlmək istəyən, sapı özümüzdən olan baltalar olmasa, biz daha çox irəli gedə bilərik. Həmin qüvvələr unutmasınlar ki, gec-tez Türk birliyi güclənəcək. Və tarix bu cür insanları öz siyahısından siləcək".

**Deputat Nizami Cəfərov da məsələ ilə bağlı modern.az saytına danışıb. O, A.Əlizadənin Osmanlı İmperiyası ilə bağlı fikirlərini əsassız sayır:** "Nəyə görə əsassız sayıram? Çünki orada elə məsələlər var ki, onu müzakirə etmək olar. Araz Əlizadə də kifayət qədər məlumatlı və düşüncəli adamdır. O, boş yerə, təsadüfi söz də deməz. Amma bununla yanaşı, orada gərək bütün məsələlər nəzərə alınsın. Təsadüflər yox. Mənə elə gəlir ki, Araz müəllim mahiyyəti nəzərə almalıdır. Həmin dövrün mürəkkəb şəraitində nələrin baş verdiyi Tarix İnstitutu tərəfindən təhlil olunur. Mən hesab etmirəm ki, Ermənistanın Azərbaycan torpaqları hesabına dövlət qurması Osmanlı İmperiyasının günahıdır. Mən buna inanmıram. Çünki Osmanlı İmperiyasının o zaman elə bir gücü yoxuydu. Çünki Birinci Dünya müharibəsindən məğlub çıxmışdı. Həmin vaxtda da Atatürkün komandanlığı altında yeni hərəkat başlayırdı".

**Deputat bildirib ki, Qafqaz İslam Ordusunun komandanı Nuru Paşanın Azərbaycana gəlməsi və xalqa kömək etməsi hansısa fərdi, subyektiv maraqlarla bağlı deyildi:** "Bu, hərbi nazir Ənvər Paşanın ideallarından biri idi. Nuru Paşa Azərbaycana Turan dövləti yaratmaq, bütün Türk dünyasını birləşdirmək ideyası və marağı ilə gəlmişdi. Təbii ki, Azərbaycanda müəyyən problemlər oldu. Qafqaz İslam Ordusuna köməklik də olundu. Müəyyən qədər çətinliklər də oldu. Qafqaz İslam Ordusu burada lazımi qədər əsgər də yığa bilmədi. Müəyyən şeylərə inam itmişdi. Çünki dünya müharibədən çıxmışdı və bu, regiona da təsir etmişdi. Amma Nuru Paşanın burada şəxsi məqsədlərini, ideyaların həyata keçirməyinə inanmaq mümkün deyil".

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı həmkarı barədə sərt danışdı:** "Araz Əlizadə hər zaman fikirlər söyləyəndə etik normaları pozaraq, düşündüyünü hətta korrektə etmədən gündəmə gətirən bir insandır. Bu baxımdan, onunla bu və ya digər şəkildə qarşı-qarşıya gəlmək niyyətində deyiləm. Çünki səviyyəmiz arasında çox böyük fərq var. Həmçinin söykənmiş olduğumuz dəyərlərdə də çox böyük fərq var. Amma bir məsələ var ki, Araz Əlizadənin Azərbaycan türkünə, eyni zamanda türk dünyasına böyük nifrəti var. Hər zaman bu və ya digər şəkildə bunu ifadə edib. Görünür, bu da genetik kodlarının ona diktə etdiyi davranışdır".

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev isə "Yeni Müsavat"a açıqlamasında dedi:** "Türkiyə ilə əlaqələr qanla yoğurulub, türk qardaşlarımız yüzlərlə şəhid verib bizim torpaqlar uğrunda veriblər. Çanaqqalada azərbaycanlılar yüzlərlə şəhid veriblər. Türkiyə dövlətinin varlığı, daim ayaqda olması bizim uğurumuzdur, eyni zamanda Azərbaycanın müstəqil qalması qardaş ölkənin uğuru kimi qəbul olunur. Nəinki millət vəkillərimiz, hər bir vətəndaşımız belə fikirlər səsləndirəndə diqqətli olmalıdırlar. Çox təəssüf edirəm ki, belə ifadələri həmkarım işlədir. Hesab edirəm ki, tarixçilərin həmin tarix barədə cəmiyyətə ətraflı məlumat verməsi çox vacib olardı. Araz bəy fikirlərində redaktələr etməlidir. Parlament üzvü olan bir şəxs qardaş ölkənin ünvanına bu cür fikirlər səsləndirməsi doğru deyil. Münasibətləri qurmaq əvəzinə, ona xələl gətirəcək açıqlamalar verilməməlidir. Yerində olmayan ifadələrdir. Deputat istənilən məsələyə öz münasibətini bildirə bilər. Amma indi çox həssas zamandır. Artıq Azərbaycanın dost-düşmənləri bəllidir və səngərləşmiş formadadır. Hansı dövlətin ölkəmizə qarşı hansı münasibətdə olduğu ortadadır. Ölkəmiz üçün hər şeyi etməyə hazır olan Türkiyə və onun sərkərdələri barədə bu cür fikirlər səsləndirmək heç zaman doğru olmaz. Belə məsələlərə həssas yanaşmaq lazımdır".

**"Azərbaycan" qəzetinin baş redaktoru, deputat Bəxtiyar Sadıqov hər bir deputatın bir məsələyə münasibət bildirməsinin onun şəxsi işi olduğunu qeyd etdi:** "O şey ki, bizim tariximizdir, tariximizdə baş verən ağrılı məsələ ilə bağlıdır, o haqda danışanda son dərəcə ehtiyatlı olmaq lazımdır. Unutmaq lazım deyil ki, tariximiz uzun zaman saxtalaşdırılıb, arxivlərdə gizlədilib. Bir çox hadisələr barədə düzgün olmayan informasiyalar yayılıb. Bu, SSRİ-nin məqsədyönlü siyasəti idi. Azərbaycan-Türkiyə qardaşdır, böyük müttəfiqdirlər. Çanaqqalada bizimkilər döyüşüblər, şəhid olublar. Bakının erməni-daşnak qüvvələrindən təmizlənməsində türk əsgərlərinin qəhrəmanlıqları olub. Bu arada qeyd edim ki, "Azərbaycan" qəzetinin ilk sayı Gəncədə buna həsr olunub və xalq bu xəbəri çox sevinclə qarşılayıb. Nuru Paşanın və Türkiyənin o zamankı yardımına hər zaman böyük hörmətlə yanaşmışıq. Onları xilaskarımız kimi qəbul etmişik. Kimsə onun haqqında mənfi danışırsa, nəzərə almalıdır ki, bu, xalqın heysiyyətinə toxunmaqdır. Belə məsələlərdə son dərəcə ehtiyatlı olmaq lazımdır. Arxivə gedib, ilkin mənbəyə baxıb, düzgün danışmaq lazımdır".

**Hazırda Araz Əlizadənin deputat olduğu Xətai rayonunun 15 il millət vəkili olan Ümid Partiyasının sədri İqbal Ağazadə qısa danışdı:** "Bu barədə ona görə çox danışmadım ki, qərəz kimi görünə bilərdi. Ona görə də mövqeyimi facebook səhifəmdə bir cümlə ilə ifadə etdim. Başqa fikirlər səsləndirsəydim, deyəcəkdilər ki, seçkidən dolayı qərəzli danışır. Cəmiyyət onsuz da kifayət qədər ciddi reaksiya verir".

**A.Əlizadənin artıq mandatının əlindən alınması ilə bağlı çağırışlar da səslənməyə başlayıb.**

**AĞ Partiya bununla bağlı hökumətə çağırış edib:** "Araz Əlizadə qardaş Türkiyə əleyhinə heç bir tarixi faktlara söykənməyən, yalnız iftira və böhtana əsaslanan sayaqlamalarla gündəmə gəlib. Öz keçmişini unutmuş manqurt deputat 1918-ci ildə Azərbaycan xalqını erməni, rus silahlı dəstələri tərəfindən total şəkildə fiziki məhv edilmədən, soyqırımdan xilas edən Qafqaz İslam Ordusu və onun komandanı Nuru Paşaya da həyasızlıq edib. AĞ Partiya Azərbaycanın hüquq-mühafizə orqanlarından tələb edir ki, iki qardaş dövlət arasında nifaq salaraq, süni düşmənçilik zəminində dövlətlər arasındakı münasibətlərə xələl gətirən bu şəxsin əməlinə hüquqi qiymət verilsin və qanunvericilik çərçivəsində lazımi tədbirlər görülsün. Həmçinin Milli Məclisin Nizam-İntizam komissiyasından tələb edirik ki, Araz Əlizadənin bu əməlləri gündəliyə salınsın, müzakirəyə çıxarılsın və bu şəxsin deputatlıq mandatının ləğvi istiqamətində prosedurlara başlansın. Unutmaq olmaz ki, belə vətən xainlərinin nifaq salan fitnələrinə zamanında kəskin hüquqi cavab verilməsə, dövlət maraqlarımız və dövlətçiliyimiz daim təhlükə altında qalacaqdır".

❑ **Cavanşir ABBASLI**

# "Şanlı keçmiş"in zəvzək bərpaçıları



**Xalid KAZIMLI**

**İmperiya quran hər bir millətin bir tərəqqi dövrü, bir də tənəzzül periodu var. İndiyədək yüzlərlə xalq dirçəliş və çöküş dövrləri yaşayıblar. Azalaraq mövcudluğunu qoruyan xalqlar da olub, tamamilə silinib yox olan xalqlar da.**

Məsələn, Çingiz xan dövründə Koreyadan tutmuş Macarıstana qədər dünyanın böyük bir hissəsi monqolların hakimiyyəti altında idi. Bu gün Monqolustan xalqının beşdə dörd hissəsi Çinin tərkibindəki muxtar bölgədə yaşayır. Müstəqil Monqolustan isə dünyanın ən zəif dövlətlərindən biridir.

Vaxtilə okeanların ötəsində müstəmləkələrə sahiblik etmiş hollandlar bu gün ərazicə Azərbaycanın yarısı boyda olan Niderland krallığında yaşayırlar.

Dünyanı dəniz yolu ilə fəth etmiş, Cənubi Amerikanın ən böyük dövləti olan Braziliyanı təsis etmiş Avropanın ən kasıb ölkələrindən biri olan Portuqaliya hüdudlarına sığışıblar.

Hələ fransızlar... Bir vaxtlar onlar da dünyaya ağalıq eşqindəydilər, Afrikada böyük-böyük ölkələrə sahiblənmşdilər, müqavimət görəndə qətliamlar da törədirdilər, bu gün öz tarixi ərazilərinə - Fransaya çəkiliblər.

Almanlar öz yüksəliş dövrlərini çoxdan arxada qoyublar, hətta vaxtilə Avropada tikdikləri böyük şəhərləri belə itiriblər, iki dövlətə parçalanmağın acısını yaşayıb, yenidən birləşiblər.

Dünyanın ən geniş areallı imperiyasını quran ingilislərin hazırkı durumu əski vaxtlardakı kimi deyil. Onların müstəmləkəyə çevirərək sahib olduqları, idarə etdikləri ölkələrin əksəriyyəti müstəqillik qazanıb, qalanların Britaniyadan asılılığı isə simvolik səciyyə daşıyır.

Vaxtilə 3 qitədə böyük bir imperiya quran Osmanlı səltənətinin yerində qalan müasir Türkiyə hazırda öz ərazi bütövlüyünü qorumaq üçün mübarizə aparır.

İspanların, isveçlilərin, iranlıların keçmişdəki və hazırkı durumlarından da bəhs etmək olar. Onlar da vaxtilə öz tarixi ərazilərindən 2-3 min kilometr uzaqlara gedib ağalıq ediblər, amma indi öz yerlərinə qayıdıblar.

Tarixin hansısa zaman kəsiyindəsə böyük dövlətlər qurmuş xalqların çoxunda imperiya ambisiyası qalır, "biz böyük xalqıq" ritorikası davam edir və o, bu və ya digər şəkildə müasir dövlətin siyasətində inikas olunur.

Bəzi xalqlar da var ki, "şanlı keçmiş"ə dair ambisiyalardan heç cür qurtula bilmirlər. Məsələn, hazırda monqolların demək olar ki, hamısı Çingiz xan dövrünün, Anadolu türklərinin mühüm bir hissəsi Osmanlı imperiyası dönəminin, rusların çoxu isə keçmiş SSRİ vaxtının nostaljisi ilə yaşayırlar.

Rusiyada adında "liberal" kəlməsi daşıyan faşist partiyasının lideri Vladimir Jirinovskinin növbəti sərsəmləməsinə bu prizmadan baxmaq lazımdır.

Ola bilər, onun bu sayaq silsiləvi zəvzəmələrini Kremldə də dəstəkləyənlər var, amma onlar da "şanl keçmişin bərpası" mərəzinə tutulanlardır.

Dünya tarixi göstərir ki, öz yüksəlişinin pik dövründə əldə etdiyi nailiyyətləri unuda bilməyən, təbii tənəzzül dövrünə müqavimət göstərərək "köhnə əyyamı" bərpa etmək istəyən xalqlar həm özlərini, həm də başqa xalqları faciələrə sürükləyirlər. Bariz nümunə - faşist Almaniyası.

Jirinovskinin köhnə SSRİ-ni bərpa etmək çağırışları öz ölkəsinin siyasi dairələrində ciddiyə alınsa, bu, böyük faciələrin siqnalı deməkdir.

Ölkəmizdə də bu xüsusda eyforiyaya və nostaljiyə qapılanlar var.

Ancaq hər kəs bilməlidir ki, Jirinovski və onun kimilər SSRİ-ni bir sosialist quruluşlu dövlət kimi bərpa etmək istəmirlər, sadəcə, o qırmızı imperiyanın sərhədlərini bərpa edərək, orada yeni və daha qəddar bir despotik rejim yaratmaq istəyirlər.

Yoxsa Jirinovski çar dövrünün quberniyalarını yox, sovet dövrünün "müttəfiq respublika"larını bərpa etməkdən danışardı.

Adam federasiyanı da nəzərdə tutmur, birbaşa unitar dövlət quruluşundan bəhs edir.

Əlbəttə, bu bir xəyaldır, utopiyadır. Rusiya ötən əsrin ortalarında öz tarixi tərəqqisinin pik nöqtəsinə çatıb, əsrin sonlarında isə tənəzzül dövrünə qədəm qoyub və ilbəil zəifləməkdədir.

Jirinovski və onun kimilərin keçmiş SSRİ-nin ərazisini bərpa etmək təşəbbüsü milyonlarla insanın fiziki məhvindən sonra, o da nəzəri olaraq mümkündür, amma bu da azman imperiyanı ayaqda saxlamağa yetməz.

Belə bir şey mümkün olsaydı, onu monqollar edərdilər.



# Biz niyə gülmürük

Zamin HACI
zaminhaci@gmail.com

"Hava sənin başın ətrafında yüngül bir şeydir. Sən güləndə o işıqlanır"

**(Tonino Querra)**

**İspaniyanın cənub-şərqində Mursiya adlı bölgə var, "Avropanın bostanı" adına tam layiqdir. Necə ki, SSRİ vaxtı bizim Azərbaycanın Lənkəran-Astara bölgəsinə "Ümumittifaq bostanı" deyirdilər. (Yazı zamanı internetdə dəqiqləşdirdim, Mursiyanı "Avropanın bağı" adlandırırmışlar. Meyvəçilik də güclü inkişaf edibmiş). Təzəlikcə Britaniyada tərəvəz və bostan bitkiləri qıtlığı yaranıb, hətta bəzi dükanlar müəyyən tərəvəzləri limitlə satırmış. Bunun səbəbi isə Mursiya bölgəsində daşqınlar üzündən keçən il məhsulun azlığı imiş.**

Britaniya sakinlərinin badımcan tapmadığı haqda xəbəri oxuyandan sonra kiçik məhəllə marketində kiloqramı 2 manat 20 qəpiyə təzə badımcanı gördüm və yadıma başqa bir dövr düşdü. SSRİ-nin son illərində ərzaq qıtlığı, uzun növbələr, talon sistemi, boş dükanlar adi hala çevrilmişdi və 1988-89-cu ilin qışında bazarda təzə badımcanın kiloqramı nə az, nə çox: 25 manata idi!

SSRİ-də o vaxtlar rəsmi statistikaya görə orta əmək haqqı 200 manat ətrafında idi. Müəllim 150 manat, fəhlə 75-80 manat alırdı. Təsəvvür edin, fəhlənin maaşına cəmi 3 kilo badımcan düşürdü. İnsanları qul kimi işlədirdilər, əvəzində verilən qəpik-quruşla isə almağa heç nə yox idi. Halbuki soyuducu anbarlar, istixanalar düzəldib milləti yay-qış təzə tərəvəzlə təmin eləmək çətin idimi? İndiki ölçü sistemindən, bu günümüzdən baxanda asan görünür. Ancaq SSRİ-nin mahiyyətini anlamayanlar belə asan düşünə bilər. Məsələ ondadır ki, həmin badımcanı istixanada yetişdirmək üçün öncə hansısa "Badımcanistiliktəchizatxozqozmoz" adlı dövlət idarəsi yaradılmalı idi. Əhalinin illik badımcan istehlakını hesablamaq üçün Dövlət Plan Komitəsi başqa bir dövlət komitəsinin nəzdindəki plan-layihə institutuna sifariş verməli idi, ordakı bir sürü arvad və kişi neçə il oturub hər adambaşına tibbi badımcan normativini müəyyənləşdirməliydi, üstəlik bu zaman Anqola, Kuba, Vyetnam kimi qardaş sosialist dövlətlərinə edilə biləcək badımcan yardımı da bu smetaya salınmalı idi.

Belə axmaq bürokratik sistem üzündən eşşək boyda dövlət darmadağın oldu getdi. İndi, maşallah, badımcanın bizdə hətta taksisi də vardır. Ölkəmiz yapizm döngəsindən burulub kommunizmə doğru iri addımlarla irəliləyir. Ağlıma bir təzə ideya gəlib, onu da yazım, uca millətimiz sevinsin: niyə bizim respublikanın adında nəsə bir epitetdən-zaddan olmasın? Qıraqdan baxan bizim təyinatımızı dəqiq bilməlidir. Misal üçün, Amerika Birləşmiş Ştatları, Rusiya Federasiyası, nə bilim, İran İslam Respublikası deyirlər. Bizdə isə eləcə Azərbaycan Respublikası-dır. Məncə bu yanlışlıq tezliklə aradan qaldırılmalı, Azərbaycan İdman Respublikası - AİR adlanmalıyıq.

Detallar çox önəmlidir. Millətimiz qaraqabaqdır, adətən üzü gülmür. *(Küçədə-bayırda əntər meymunları kimi qışqırıb əcaib səslə hırıldaşan bəzi cavan oğlan tiplərimizə aid deyil)*. Bunun səbəbi nədir, bütün ziyalılarımızı düşündürür. Mən səbəblərdən birini, özü də çox ciddi olanını tapmışam. Şəxsən başıma gəldiyi üçün dəqiqliyinə yüz faiz - adım kimi qarantiya verirəm. Hətta iddia edirəm ki, AMEA-da bu kəşfimə gülümlər doktoru adı verilməlidir. İzah edim.

Mən özüm şəxsən üzügülər adamam, amma keçən ilin əvvəlində qabaq dişlərimdən biri qəfil sındı. Həkim dedi bura implant əkilməlidir, qiyməti gəlib filan-filan olacaq, mən də maaşa baxdım, həkimə baxdım, dişimin yerinə baxdım, dedim, sağ ol, doktor, bir diş ilə bahar olmaz! Eləcə, dişin yeri boş qaldı. Nəticədə mən bir ildir uca millətimizin üzünə gülə bilmirəm, ya da güləndə ağzımın o tərəfini əlimlə örtürəm. Camaatımızın qaraqabaq olmasının əsas səbəbi bax budur: dişimiz yoxdur! Normal, salamat dişlərimiz olsa, ürək açıqlığı ilə, rahatlıqla gülərik.

Diş çürüməsi problemləri xüsusən qapalı rejimli türmələrimizdə ağırdır. Bu həftə eşitdim ki, REAL başqanı, 4 ildir qanunsuz həbsdə saxlanılan İlqar Məmmədovun dişlərində ciddi problemlər ortaya çıxıb, ancaq türmə rəhbərliyi, Ədliyyə Nazirliyi onun müalicəsinə imkan yaratmır. Daha doğrusu, türmə xəstəxanasının bərbad stomatoloji xidmətini təklif edirlər, İlqar bəyin öz hesabına kənardan həkim gətirib müalicə hüququnu isə rədd edirlər.

# Jirinovskinin açıqlamalarına Bakıdan sərt reaksiyalar

## Elçin Mirzəbəyli: "Rusiyada beləələri hər zaman olub və bundan sonra da təəssüf ki, yenə də olacaqlar"
## Qənirə Paşayeva: "Özümü danışır, yoxsa onu danışdırırlar?"

**Rusiya Liberal Demokrat Partiyasının sədri, Dumanın deputatı Vladimir Jirinovski yenidən şovinist xarakterli açıqlama ilə çıxış edib. Postsovet ölkələrinin guya Rusiya ətrafında birləşməkdə maraqlı olduğunu bildirən Jirinovski deyib ki, SSRİ bərpa edildikdən sonra Azərbaycan və Ermənistan olmayacaq, Bakı və İrəvan quberniyası olacaq: "Qarabağı onlar heç zaman həll edən deyillər. Azərbaycan və Ermənistan arasında həmişə müharibə olacaq.**



Amma biz oranı götürəndən və SSRİ sərhədlərini bərpa etdikdən sonra orada nə Qarabağ, nə də Azərbaycan olacaq: İrəvan və Bakı quberniyaları. Çarın vaxtındakı kimi. Təhlükəsizlik var, həyat səviyyəsinin yaxşılaşması var, perspektiv var. Mədəniyyət də yaradın. Hər şeyi rus dilinə çevirəcəklər. Hamı öz yazıçılarını və qalan şeyləri unudacaq".

Azərbaycanın işğal edilməsi çağırışı hesab etmək olarmı bu açıqlamanı? Bu açıqlamaya görə Azərbaycan Rusiya və şəxsən Jirinovskinin özünə rəsmi etiraz etməldirimi? Bir müddət öncə Bakıya təmtəraqlı qonaq gətirilən bu adam nədən indi yenə Azərbaycana qarşı danışmağa başladı?

**Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, Jirinovski kimi adamlara xoş münasibət göstərilməsi düzgün deyildi və bu münasibətin onların mövqeyində hər hansı bir dəyişikliyin baş verəcəyinə ümid bəslənilməsini ən yaxşı halda növbətçi təbəssümlə qarşılamaq olar:** "Bizə Jirinovskinin ədaləti lazımdı? Rusiyada Jirinovski haqqında məşhur bir lətifə var: "Jirinovskini quduz it dişləyir. Və tibb tarixində ilk dəfə olaraq həkimlər hər ikisinə quduzluğa qarşı iynə vururlar". Zənnimcə, bu lətifə Jirinovskinin mahiyyətinin nədən ibarət olduğunu dərk etmək üçün yetərlidir. RLDP lideri ilk dəfə deyil ki, SSRİ-nin bərpası, postsovet ölkələrinin ilhaq edilməsi ilə bağlı çağırışlar edir. Şübhəsiz ki, bu çağırışlar Rusiya cəmiyyətinin siyasiləşmiş və hakimiyyətə transfer olunmuş ultramillətçi kəsiminin arzu və istəklərini də ifadə edir. Belə çağırışlar adətən Rusiyada sosial-iqtisadi durum ağır olanda daha qabarıq şəkildə nəzərə çarpır. Rusiyada belə nağıllara hələ də inananlar tapılır. Jirinovski və təlimatçıları rus xalqının mental xüsusiyyətlərini yaxşı bilir və bundan da məharətlə istifadə edirlər. Lakin hər şeyin sonu var. Rusiyadakı indiki əhval-ruhiyyənin də sonu olacaq. Amma təəssüf ki, tarix boyu Rusiyada baş verən dəyişikliklər xaosla, vətəndaş müharibələri, qarşıdurmalarla müşayiət olunub".

**Ekspert hesab edir ki, Jirinovskinin çağırışlarına reaksiya verməyə dəyməz. Bu çağırışları, sadəcə, Rusiyada baş verən proseslərin tərkib hissəsi kimi dəyərləndirmək, güclü olmaq və yola davam etmək lazımdır:** "Bununla yanaşı, başqa bir məqamı da nəzərə almağı vacib hesab edirəm. Rusiya siyasətçilərinin dostluğu öz maraqlarının sərhədlərinə qədərdir. Bu münasibətlərə ədalət və vicdan müstəvisindən yanaşmaq kökündən yanlışdır. Rusiyada vicdanı və ədalət hissi olan insanlar tarix boyu əziliblər, sürgün ediliblər, onlara vətən xaini kimi baxıblar. Bu siyasətdən də ən çox rus xalqı ziyan görüb. Mendeleyevin cədvəlindəki bütün elementlər Rusiyanın sərhədlərinə daxil olan ərazilərdə var. Rusiyanın hər şeyi var, amma rus xalqı yenə də xoşbəxt deyil. Çünki o, başqalarını bədbəxt etməklə öz bədbəxtliyini unutmağa çalışır. Ona bunu öyrədiblər, təlqin ediblər.

Rusiyada jirinovskilər hər zaman olub və bundan sonra da təəssüf ki, yenə də olacaqlar".

**Deputat Qənirə Paşayeva isə bildirdi ki, uğursuz və qeyri-ciddi siyasətçi Jirinovski hələ də anlamır ki, Azərbaycan xalqı heç zaman onun Bakı quberniyası və s. kimi arzularının reallaşmasına imkan verməz:** "Jirinovskinin keçmişi də, fəaliyyəti də hər kəsə bəllidir və ciddi qəbul ediləcək tərəfi yoxdur, amma hər dəfə onun bu cür açıqlamalarından sonra insanı düşündürən önəmli sual budur: özümü danışır, yoxsa onu danışdırırlar? Əgər danışdırırlarsa, düşündürücüdür... Rusiyada onu tanıyan ziyalılarımızdan kimsə varsa, ona söyləsin ki, vaxtını ölkəsinin ciddi problemlərinin həllini düşünməyə həsr etsin. Bakı heç bir zaman heç kimsənin quberniyası olmayacaq. Hər zaman müstəqil Azərbaycan dövlətinin paytaxtı olacaq. Onun bu cür açıqlamaları isə şimal qonşumuzda bir çoxlarının ürəyindən keçən bu cür xəyallar barədə xalqımızın hər zaman daha çox məlumatlı olmasına və müstəqil dövlətimizə daha da çox sarılıb onun müstəqilliyi üçün çalışmamıza səbəb olur".

**YAP Siyasi Şurasının üzvü, deputat Aydın Mirzəzadə isə modern.az-a deyib ki, Jirinovskinin fikirləri çox təhlükəlidir. O, müstəqillik qazanmış dövlətlərin müstəqilliyini əlindən almış kimi provokasiyalı fikir səsləndirir:** "Görünür, Rusiyanın müəyyən dairələrində vaxtaşırı köhnə Çar imperiyasını bərpa etmək fikirləri, düşüncələri dolaşır. Amma Jirinovski və onun təmsilçiləri bilməlidilər ki, indi 21-ci əsrdir. Bu gün dünyanın sabitliyini saxlayan əsas prinsip sərhədlərin toxunulmazlığı prinsipidir. Məhz bu prinsipə görə bu gün sülhü təmin etmək və dövlətlər arasında xoş münasibətlər yaratmaq mümkündür. Jirinovskinin fikirləri Azərbaycan cəmiyyətində etiraz doğurur. Təsəvvür edin: Jirinovskinin fikirləri tətbiq olunarsa, dünya yenidən orta əsrlərə qayıda bilər. Həmçinin Azərbaycan müstəqilliyini ona görə qazanmayıb ki, sonradan onu əldən versin. Azərbaycanın hər bir vətəndaşı canından keçər, amma torpağının başqa bir dövlətin ərazisinə birləşdirilməsi işinə imkan verməz. Azərbaycan öz müstəqilliyini təsdiq edərək müstəqillik yolunda böyük uğurlar qazanıb. Müstəqil Azərbaycan dövlətinin olması həm də bütün Cənubi Qafqazın stabilliyi, eləcə də Cənubi Qafqazla bağlı bir çox uğurlu layihələrin təminatı deməkdir".

**A.Mirzəzadə hesab edir ki, Jirinovskinin bu fikirləri Rusiya hakim dairələrinin və ictimaiyyətinin fikirləri deyil:** "Rusiyanın demokratik qüvvələri heç vaxt bu yöndə fikirlərini ifadə etməyiblər. Həmçinin Jirinovskinin fikirlərini müdafiə etmirlər".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 28 (6642) 8 fevral 2017

## Ermənistan və onun havadarları şokda - olan oldu...

**Dünən - fevralın 7-də Belarus Ali Məhkəməsi keçən ilin dekabrında Bakının sorğusu əsasında saxlanmış blogger Aleksandr Lapşinlə bağlı yekin qərarı elan edib. Məhkəmə onun ölkəmizə ekstradisiyası barədə Belarus Baş Prokurorluğunun 18 yanvar tarixli qərarından verilən apelyasiya şikayətini təmin etməyib. Az öncə Minsk Şəhər Məhkəməsi də analoji qərar çıxarmışdı.**




# Bakının diplomatik qələbəsi - Lapşin Azərbaycana verildi

### Rəsmi Moskvanın təhdid və hədələrinə rəğmən, yəhudi bloggerin ekstradisiyası reallaşdı; məsələ bütünlüklə rəsmi Bakının siyasi iradəsi altına keçir; Azərbaycanın yekun sözü nə olacaq?..

Bu, o deməkdir ki, Lapşinin ölkəmizə təhvil verilməsi haqda qərar dərhal qüvvəyə minmiş sayılıb və o, elə dünən qolu qandallı Bakıya gətirilməli idi. Hərçənd TASS məlumat yayıb ki, Lapşinin arvadı Belarus hökumətinə müraciət edərək və ekstradisiyasını ləngitmək məqsədilə son ümid yeri kimi Lapşinin müdafiəsi üçün daha bir imkan tanınmasını xahiş edib.

Məlumatlara görə, Ali Məhkəmə apelyasiya şikayətinə baxmağa yarım saatdan da az vaxt sərf edib. Bloggerin özü məhkəmədə olmayıb.

*****

Beləliklə, gözlənilən oldu. Rəsmi Minsk üçlü vətəndaşlığa (İsrail, Rusiya, Ukrayna) malik yəhudi bloggerin qeyd-şərtsiz azad edilməsi ilə bağlı ələlxüsus Rusiyanın (xarici işlər naziri Sergey Lavrov, XİN sözçüsü Mariya Zaxarova, ombudsman Tatyaa Moskalkova) təzyiq-təhdidlərinə, məhkəməyə təsir cəhdlərinə baxmayaraq, siyasi iradə göstərdi və sözünü tutdu. Zatən, prezident Aleksandr Lukaşenkonun ötən həftəsonu mətbuat konfransında səsləndirdiyi məlum fikirlərdən də aydın idi ki, Belarus hökuməti məsələdə Moskva qarşısında geri çəkilmək niyyətində deyil. Elə də oldu.

Bu, sözsüz ki, ilk növbədə Azərbaycan-Belarus dostluğunun bir təzahürü sayılmalıdır. İkinci amil kimi prezident A.Lukaşenkonun məsələdə göstərdiyi qətiyyət xüsusi qeyd edilməlidir. Digər bir mühüm faktor qismində əlbəttə ki, rəsmi Bakının təkidi və prinsipiallığı vurğulana bilər. Hər necə olmasa, Azərbaycan geri çəkilsəydi, Belarus Ali Məhkəməsinin yekun qərarı da fərqli olardı.

İndi məsələ artıq bütünlüklə Bakının siyasi iradəsi altına keçir. Ayrı sözlə, Lapşinin taleyini sırf Azərbaycan, onun prezidenti həll edəcək. Minskin yekun qərarı bilindi, bəs rəsmi Bakının yekun sözü nə olacaq? Lapşin və anasının prezident İlham Əliyevə əfvlə bağlı ünvanladıqları yazılı müraciətləri, İsrail XİN-in xahiş minnətləri, Rusiya rəsmilərinin "göz ağartmaları" ciddiyə alınacaqmı?

*****

Siyasi müşahidəçilərə görə, sualın cavabı bir sıra amillərdən asılı olacaq. Söhbət öncəliklə, İsraillə Azərbaycan arasında ənənəvi strateji tərəfdaşlıq əlaqələrinə xələl gətirilməməsindən gedir. Heç şübhəsiz, bunu rəsmi Təl-Əviv də, Bakı da yaxşı anlayır. Ona da şübhə yox ki, Azərbaycan qanunlarını kobud şəkildə pozan hansısa bloggerə görə tərəflər "çox dərinə" də getməyəcək və "qızıl orta"nı gözləyəcəklər.

Azərbaycan yəqin ki, məsələdə həmçinin Moskvanın istəyini hansısa şəkildə nəzərə alıb "qızıl orta"ı gözləməyə çalışacaq. Ancaq ötən saylarımızda vurğuladığmız kimi, ən əvvəl milli maraqlarımız əsas götürüləcək, Azərbaycan dövlətinin siması hər vəchlə qorunacaq. Milli maraqlar isə tələb edir ki, Lapçin məsələsində pozitiv bir insident yaradılsın ki, bundan sonra işğal altındakı ərazilərimizə qanunsuz səfərlər əngəlləsin. Həmin ərazilərə oğrun yollarla getmək istəyənlər öncə iki dəfə düşünsünlər.

Bu mənada Bakının ilk diplomatik qələbəsindən artıq danışmaq olar. Çünki Lapşinin Bakıya gətirilməsinin özü artıq digər "adrenalin həvəskarları" üçün çəkindirici amil rolunu oynayacaq. Başqa yandan, Azərbaycana dost-tərəfdaş olan digər ölkələr də bundan sonra analoji qərarlar çıxarmağa tərəddüd etməyəcək.

Təsadüfi deyil ki, Lapşinin ekstradisiyası ilə bağlı ən çox təlaş keçirən işğalçı Ermənistan, separatçı rejim, beynəlxalq erməni lobbisi idi. Düşmən tərəf həm də ona görə canfəşanlıq edirdi ki, belə bir ekstradisiya qərarı turizmi inkişaf etdirmək adı ilə qanunsuz və separatçı qurumu dünyada reklam və təbliğ etmək planlarına ciddi zərbədir.

*****

Bir daha yada salaq ki, Azərbaycan hüquq-mühafizə orqanları yəhudi bloggeri işğal altındakı Dalıq Qarabağa qanunsuz səfər etməkdə, ölkənin ərazi bütövlüyünə qarşı açıq çağırışlarda və separatçı rejimi təbliğdə ittiham edir. Azərbaycan qanunları əsasında o, 8 ilədək azadlıqdan məhrum etmə cəzası ala bilər.

Hüquqi prosedurlara görə, Lapşinin əfvi onun haqqında Azərbaycanda çıxarılacaq məhkəmə hökmü qüvvəyə minəndən sonra mümkün ola bilər. Bəzi iddialara görə, blogger mühakimə olunmaq üçün İsrailə də verilə bilər.

Qəzet çapa hazırlanarkən belə bir xəbər aldıq ki, Lapşini Bakıya gətirən təyyarə yaxın saatlarda Binə hava limanına enəcək. Ola bilsin ki, oxucular bu yazını oxuyarkən Lapşin artıq Azərbaycan hüquq-mühafizə orqanlarına təhvil verilmiş olacaq...

❑ **Sìyasət şöbəsì**

---

# "Prezidentin ətrafını tənqid edənlər" iddiasına deputatlardan cavab gəldi

**"Bizdə tənqidlə təhqir çox vaxt bir-biri ilə qarışdırıldığından, hakim düşərgənin nümayəndələri də, ora aid olmayanlar da- hər kəs belə hallara qarşı adekvat reaksiyasıya verir. Bu, təbiidir".**

Deputat Əli Məsimli bunu "Yeni Müsavat"a açıqlamasında YAP-çı deputat Siyavuş Novruzovun səsləndirdiyi fikirlərə reaksiya verərkən bildirdi. Qeyd edək ki, S.Novruzov "Yeni Müsavat"a müsahibəsində bəzi adamların yeni taktika seçdiklərini bildirib. "Bu taktika nədən ibarətdir: prezidenti tərifləyək və bundan özümüzə qalxan yaradaq, yerdə qalanları tənqid edək" deyə, YAP funksioneri bildirib. O, parlamentin iclasında da hökuməti tənqid edən həmkarlarını sərt şəkildə qınayıb. Ə.Məsimli isə fərqli düşünür. Hakim düşərgənin nümayəndələrinin tənqidləri qəbul edib-etməməsi barədə fikirlərə reaksiyasında deputat bildirdi ki, başqalarının yerinə danışmağı lüzum bilmir: "Öz payımıza onu deyə bilərik ki, bəlkə də kənardan baxına inandırıcı gəlməz, amma heç kəs indiyədək bizə deməyib ki, nəyisə tənqid et, nəyisə tənqid eləmə! Biz 11 illik deputat fəaliyyətimizin birinci ilində olduğu kimi, indi də heç bir fərq qoymadan ümumiyyətlə hökumətin fəaliyyətinin və onun ayrı-ayrı istiqamətlərinin müsbət məqamlarını vurğulayır, mənfi məqamlarını isə tənqid edirik. Həm də reallıq hissini itirməyən hər kəsə məlumdur ki, biz heç vaxt sadəcə tənqid naminə tənqid eləmirik".

**Ə.Məsimli yeri düşəndə prezidentin də həmin məsələlərə dair fikirlərini xatırlatdıqlarını qeyd etdi:** "Bildiririk ki, bu məsələlərdə o qədər ifrata varılıb və artıq prezidentin çıxışında qırmızı xətt kimi gedir ki, "məmur xalqın xidmətçisidir, vətəndaşa xidmət, kömək göstərməlidir. Məmur özünü təvazökar aparmalı, özü və ailə üzvləri nümunə olmalıdır. Rüşvətxorluqla, soyğunçuluqla məşğul olmamalıdır". Hansısa deputat bizdən sonra çıxış edib deyir ki, "yox, bu sahələrdə vəziyyət deyildiyi kimi acıncaqlı deyil, yaxşıdır". Bu da onun fikridir və təbii hesab edirik. Amma daban-dabana zidd olan belə yanaşmalarda əsas meyar fərdin fikri yox, ictimai fikirdir".



**Əli Məsimli:**
"Biz heç vaxt tənqid naminə tənqid eləmirik"



**Fazil Mustafa**:
"Hansı metodla tənqidi çıxış etməyi opponentlərə öyrətmək olmaz"

**Ə.Məsimli bildirdi ki, Milli Məslisdəki çıxışlarımızda "yaxşı işləyənlə pis işləyəni fərqləndirmək lazımdır" fikrini onlar da işlətdiyindən və konkret sahələrdəki fəaliyyəti tənqid etdiklərindən, yenə bu barədə dediklərinin üstündə dururlar:** "Milli Məclisin işini işıqlandıran bir media mənsubu kimi siz də bunun şahidi olmuşunuz ki, Şəkinin kəndlərinin qazlaşdırılması gecikdiriləndə anoloji mövqedən çıxış etmişik. Sonra Şəkidə işlər intensivləşdirildi, biz də növbəti çıxışımızda müsbət addımları da dedik. Bununla belə, biz də arada tətbiq etməyimizə baxmayaraq , fikrimizcə, sözügedən məsələlərin incə və görünməyən məqamları da çox olduğundan, konkret ad məsələsinin hər məsələyə münasibətdə ucdantutma tətbiqi xeyli dərəcədə mübahisəli məsələdir. Bir də ki, bizdə konkret adı heç vaxt sözgəlişi və ya təsadüfən çəkmirlər... Ona görə də biz belə şeylərdən yuxarıda dayanmışıq və bundan sonra da dayanacağıq. Əgər biz hökumətin maliyyə-büdcə siyasətini tənqid ediriksə, konkret təkliflərlə müşayiət olunan fərqlı bir konseptual yanaşma ortaya qoyuruq. Aidiyyəti orqanın nümayəndələri cavab çıxışında bildirir ki, hansısa məqamlarla razı deyil, razı olan məqamları isə növbəti büdcə tərtibatı zamanı nəzərə alacaqlar".

Ə.Məsimli qeyd etdi ki, o və yaxın həmkarı Vahid Əhmədovla birlikdə maliyyə sağlamlaşdırılması və xarici valyutada olan kreditlərin şərtlərin yumşaldılmasına dair təkliflər paketi təqdim ediblər: "Belə məsələlərdə bizi kiminsə adını çəkib bütövlükdə hökumətin məsuliyyətini yalnız kiminsə üstünə qoymaq yox, devalvasiyalardan sonra dollar kreditləri ətrafında baş verənlər nəticəsində bankların borc tələsinə və təzyiqi altına düşmüş yüz minlərlə insanın düşdüyü vəziyyətdən çıxmasının tezləşdirilməsi maraqlandırır. Biz heç vaxt tənqid naminə tənqid eləmirik. Hər kəs öz fikrini bildirir. İctimaiyyət də qiymətləndirir ki, həqiqət kimin tərəfindədir. Biz indiyə qədər olduğu kimi, bundan sonra da konkret təkliflər irəli sürməklə çıxış yollarına dair baxışlarımızı da təqdim etməkdə davam edəcəyik".

**Fazil Mustafa isə S.Novruzovun dediklərinə aşağıdakı kimi münasibət bildirdi:** "YAP təmsilçisi Siyavuş Novruzovun bu yanaşmasında tənqidin ünvanlılığına səsləniş var. Konkret olaraq hansısa sahənin və ya şəxsin tənqid olunmasının daha doğru olacağı vurğulanır. Məncə, bu məsələdə haqlılıq payı var. Bununla belə, hansı metodla tənqidi çıxış etməyi opponentlərə öyrətmək olmaz. Burada tələb yalnız etik çərçivəni aşmaqla tənqid etməyə qarşı qoyula bilər. Ola bilsin ki, bir nazirin neqativ fəaliyyətinə görə hökumətin fəaliyyəti qeyri-qənaətbəxş sayılsın. Burada narahatçılıq üçün hansısa əsas görmürəm. Mənim üçün vacib olan tənqidin əsaslı və qərəzsiz olmasıdır. Əsas irad, məncə, bu yöndə səsləndirilə bilər".

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 28 (6642) 8 fevral 2017



# "Bu cür yazılarla Hacı İbrahimin evini yıxdılar..."

## Qalib Salahzadə: "Mənə 10 min dollar verdi ki, get..."



**Milli Məclisin sabiq deputatı, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin qudası Hacı Qalib Salahzadə ölkə.az-a Hacı İbrahim barədə maraqlı açıqlama verib Q.Salahzadə bildirib ki, Hacı İbrahimlə uzun illərdən bəri dostluq edir:**

"Hacı İbrahimi çox yaxşı tanıyıram, o mənim həm dostum, həm də qonşumdur. Biz bir-birimizə həddindən çox yaxınıq. Hətta 1993 və ya 1994-cü ildə Hacı İbrahimlə bir yerdə Həcc ziyarətində olmuşuq. Hacı İbrahim Bilgəhdə gözəl bağ evi tikdirib, sağlığına qismət olsun. Hacı İbrahim çox ağıllı, zirək və bacarıqlı adamdır. Qonşu kimi də onun pis hərəkətini görməmişəm. Təbidir ki, bacarıqlı və zirək olduğu üçün onun paxıllığını çəkən, pisliyini istəyən adamlar var. Bəzən onun haqqında mətbuatda yazılar yazırlar. Ancaq Hacı İbrahim heç də o yazılanlardakı kimi deyil. Mən bunu da Hacı İbrahimi müdafiə etmək üçün demirəm. Heç onun mənim müdafiəmə də ehtiyacı yoxdur".

**Q.Salahzadə Hacı İbrahimi nüfuzdan salmaq istəyənlərin olduğunu bildirib:** "Yazırlar ki, guya Hacı İbrahim pulları ora-bura xərcləyir və sairə. Mən Hacı İbrahimi yaxşı tanıyıram. O, model qızlara heç 10 qəpik də pul verməz. Yalandan bu cür yazılar yazıb, onu nüfuzdan salmaq istəyirlər. Bir ara yazdılar ki, Hacı İbrahim ölkəyə xarici model qızlar gətirir və sairə. Əslində bu cür yazılarla onun evini yıxdılar. İndi ara-sıra onun adını modellərlə hallandırırlar. Ancaq Hacı İbrahim elə adam deyil. O, ağıllı və bacarıqlı iş adamıdır".

**Şeyxin qudası Hacı İbrahimin maraqlı insan olduğunu əlavə edərək bildirib:** "Hacı İbrahim Bilgəhdəki bağ evində Nehrəmdəki dağın maketini düzəltdirib. Hacı İbrahim maraqlı insandır, onun zəngin fantaziyası var, qurub-yaratmağa böyük həvəsi var. Bu da onda xüsusi istedaddır. Bir də ki Bilgəhdəki torpağı 1994-1995-ci illərdə Hacı İbrahimə mən almışam. O vaxtı mənə 10 min dollar pul verdi ki, torpaq al, mən də həmin torpağı onun üçün aldım".

**Azərbaycanlı iş adamı Telman İsmayılov APA-ya müsahibə verib. Türkiyədə baş tutan müsahibədə iş adamı maraq doğuran açıqlamalar verib. T.İsmayılov öncə deyib ki, "AST" Şirkətlər Qrupu artıq tarixdir. "Bir zamanlar "AST" hotel, restoran, icarə, ticarət və digər müxtəlif biznes növləri ilə məşğul olan və 30-dan çox şirkəti birləşdirən böyük holdinq idi. Hazırda holdinq mövcud deyil" deyən milyonçu bunun səbəbini belə izah edib.**



# Telman İsmayılov "Mossad" agenti olması iddiasından danışdı

## Müflis olmuş iş adamı: "Mənim biznesim və həyatımın böyük bir hissəsi birbaşa olaraq Rusiya ilə bağlıdır"

"Şirkətlərim əsas aktivlərimi "Praqa" restoranını, "İzmaylovo"da ticarət mərkəzini və "Krasnaya Presnya" adlanan ərazidəki ticarət-ofis mərkəzini girov qoymaqla "Bank Moskva"dan kredit alıblar. Mən zamin idim. "Çerkizov" bazarı bağlandıqdan sonra mənim üçün "Bank Moskva"ya krediti qaytarmaq və faizləri ödəmək çətin oldu. Lakin bankla münasibətlər çox konstruktiv olub. Bu banka 50 milyon dollar əsas borc və 70 milyon dollar faiz ödəmişdim. Bank üç binamın onlarda girovda olduğunu bildiyindən mənimlə görüşməyə və kreditin qaytarılması ilə bağlı problemin həllinə hazır idi. Birgə səylə üç binamdan ikisinə alıcı tapmışdıq. Hətta alıcı 15 milyon dollar məbləğində banka avans yerləşdirmişdi. Əgər bu sövdələşmə baş tutsaydı, onda kreditlərin qaytarılması ilə bağlı problem həll olunardı. Amma bu zaman "Bank Moskva"nın özündə problemlər başladı və onun bütün aktivləri "Bank VTB"-yə verildi. Nədənsə "Bank VTB" üç binamı əlimdən almağa üstünlük verdi və kredit borcunu tam həcmdə ödəməyi tələb etdi. Hüquqşünaslarım hesab edirlər ki, "Bank VTB" güc yolu ilə daşınmaz obyektləri zəbt edib və biz hazırda bütün qanuni üsullarla bununla mübarizə aparırıq".

**T.İsmayılov deyib ki, Türkiyədə inşa etdirdiyi "Mardan Palace" üzərində də əmlak hökmranlığı yoxdur:** "Bu hoteli mən atamın şərəfinə inşa etdirmişəm və arzumu reallaşdırmışam. Həmişə istəmişəm ki, valideynlərim mənimlə fəxr etsinlər. Bu hotel məhz bu məqsədlə inşa edilib. Deyilənlərin və mətbuatın təqdim etdiklərinin əksinə olaraq heç kimə heç nəyi sübut etmək istəmirəm. Əslində "Mardan Palace" arzularımın mücəssəməsidir. Hazırda "Mardan Palace" mənim olmasa da, arzularımın mücəssəməsi olaraq qalacaq və hamı biləcək ki, bu hoteli mən inşa etmişəm". **O deyib ki, yeni biznesə başlamağı planlaşdırır:** "Mən yeni şirkətlər açmağa, yeni layihələr yaratmağa, bizneslə məşğul olmağa vərdiş etmişəm. Amma bunun üçün ilk növbədə pul lazımdır. İndi bu, mənim üçün mümkün deyil. Əvvəlcə, kreditorlarımla problemləri həll etmək vacibdir. Yeni işə başlamaq üçün köhnələri başa çatdırmaq lazımdır. İndi məhz bununla məşğulam".

T.İsmayılov deyib ki, daşınmaz əmlak maqnatı olmuş ABŞ-ın yeni prezidenti Donald Trampla yaxşı münasibətləri var: "Amerikada olarkən Tramp məni evinə dəvət edib. O zamandan bizim uşaqlarımız dostluq edirlər və bir-birilərinə qonaq gedirlər".

ABŞ kəşfiyyat orqanları və "Mossad" agenti olması barədə iddialara gəlincə, o "mən sadə biznesmenəm. Yalnız bizneslə məşğul oluram. Heç bir zaman və heç bir siyasi partiyaya və ya təşkilata qoşulmamışam. Buna görə bu şayiələr tamamilə əsassızdır və bunların mənə heç bir aidiyyəti yoxdur" deyib.

**"Siz hansı ölkəni əsas vətəniniz hesab edirsiniz? 3 dildə sərbəst danışırsınız, 3 dili isə qənaətbəxş səviyyədə bilirsiniz. Bəs düşünəndə hansı dildə düşünürsünüz" sualına biznesmen belə cavab verib:** "Mənim birinci vətənim Azərbaycandır. Burada doğulmuşam, böyümüşəm, xoşbəxt uşaqlığımı burada keçirmişəm. Mənim Azərbaycanda çoxlu dostlarım və tanışlarım yaşayır, Azərbaycanı çox sevirəm. İndiyədək azərbaycanca düşünürəm. Amma mənim biznesim və həyatımın böyük bir hissəsi birbaşa olaraq Rusiya ilə bağlıdır, Rusiya Federasiyasının vətəndaşıyam. Mətbuat məndə bir neçə ölkənin pasportu olduğunu və dünyanın müxtəlif ölkələrinin vətəndaşı kimi təqdim edir. Rəsmi olaraq bəyan edirəm ki, mən Rusiya vətəndaşıyam və Rusiya pasportuna sahibəm. Mən bu ölkəni sevdim və bununla bağlı həyatımda heç nəyi dəyişmək fikrim yoxdur".



**"Planetin ən gözəl qadınlarından biri ilə romanımın olması barədə yazılar mənə xoşdur"**

**Vaxtilə sabiq vitse-primyer Abbas Abbasovun "Milyarderlər İttifaqı" adlandırılan qurumda təmsil olunan milyonçu Azərbaycan diasporlarının fəaliyyəti barədə bunları deyib:** "Harada yaşamaqlarından asılı olmayaraq, azərbaycanlılar birləşməli və bir-birilərinə dəstək olmalıdırlar. Tam səmimi deyirəm ki, azərbaycanlılar bir liderin ətrafında birləşməlidirlər və bütün işlərində ona dəstək olmalıdırlar. Azərbaycan prezidenti İlham Əliyevə qarşı çıxan istənilən şəxsi mənə qarşı çıxmış hesab edirəm. Mən tez-tez Azərbaycanda oluram. Azərbaycanın dəyişdiyini və inkişaf etdiyini görürəm. Azərbaycana çoxlu turist axını başlayıb. Hesab edirəm ki, Bakı turizm baxımından gözəl perspektivli şəhəridir. Bura daha çox turistlər gəlməlidir və inanıram ki, belə də olacaq. Bu dəyişikliklər məni özünə cəlb edir. Dayanmaq olmaz və Azərbaycanın indiki lideri bunu anlayır, bunun üçün əlindən gələni edir".

**Şəxsi həyatı və qadına münasibətlərindən danışan T.İsmayılov aktrisa Monika Belluçi ilə eşq yaşadığı barədə iddialara cavab verib:** "Mənim adım tez-tez bir çox tanınmış şou-biznes nümayəndələri ilə birlikdə hallanır. Təbii ki, planetin ən gözəl qadınlarından biri ilə romanımın olması barədə yazılar mənə xoşdur. Lakin öz ailəmə yüksək dəyər verirəm və ömrüm boyu bir yerdə yaşadığım həyat yoldaşımı çox sevirəm. Mənim yanıma indi də tanınmış artistlər qonaq gəlirlər. Bir çoxları ilə səmimi dostluq münasibətim yaranıb. Məsələn, 2016-cı ilin oktyabrında mənim yubiley gecəmə bir çox məşhur müğənnilər gəlmişdilər. Özü də təmənnasız çıxış etmişdilər. Hər şeydən əvvəl Nikolay Baskovu nəzərdə tuturam. Həmçinin Filip Kirkorov və digər müğənnilərlə isti münasibətim davam etməkdədir."

Məşhur müğənni Avraam Russonun qətlinin sifarişçisi kimi təqdim edilməsinə "mənim buna heç bir aidiyyətim yoxdur. Doğrudan da Russonun karyerasının başlanğıcında ona pulla və əlaqələrimlə köməklik etmişəm. Lakin sonradan o, populyarlığının artması səbəbindən mənim köməyimə ehtiyac duymadı və bizim yollarımız ayrılıb" deyib.

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 28 (6642) 8 fevral 2017



# Düşmənin növbəti hiyləsi: Ermənistanda "sülh yarışı" başladı

## İşğalçı ölkədə Qarabağ məsələsinin "güzəştli şəkildə" və "sülh yolu ilə" həll edilməsi parlament seçkilərinin əsas devizinə çevrilir; **politoloq:** "Əvvəlki seçkilərdə də onlar "Qarabağ kartı"ndan ustalıqla istifadə ediblər"

**Apreldə keçiriləcək parlament seçkiləri öncəsi Ermənistandakı siyasi qüvvələr Qarabağla bağlı "sülhməramlı" mövqe sərgilməyə başlayıblar. Prezident Serj Sərkisyanın ardınca, keçmiş prezident Levon Ter-Petrosyan da müharibə ritorikasından kənar mövqedən çıxış edib.**

Əslində Ter-Petrosyan hələ ötən ilin sonlarında, S.Sərkisyanın "qan-qan" deyən vaxtında onu ağıllı olmağa çağırmış, güzəştləri qaçılmaz saymış və Ermənistanı perspektiv faciələrdən xilas etmək üçün qarşılıqlı güzəştlərin vacibliyini vurğulamışdı. Ter-Petrosyan "Erməni Milli Konqresi"nin qurultayında Qarabağda sülhə, kompromislərə və barışığa çağıran geniş nitqlə çıxış edib, hakimiyyətin Qarabağda status-kvonu saxlamağa yönəlmiş siyasətinin Ermənistanı və Qarabağ ermənilərini fəlakətə sürüklədiyini bildirmişdi. Bundan sonra hətta siyasətə baş vuran Xocalı qatili, keçmiş müdafiə naziri Seyran Ohanyan da ictimai rəyi özünə cəlb etməkdən ötrü müharibə ritorikasını kənara atıb tənzimlənmənin dinc variantından bəhs etmişdi. Görünən budur ki, Ermənistan əhalisinin sürətlə ölkəni tərk etməsi, Qarabağ uğrunda ölməmək üçün xaricə üz tutan gənclərin sayının artması, Azərbaycanın prinsipial mövqeyi işğalçı ölkə siyasətçilərini ənənəvi ritorikadan çəkinməyə sövq edib. Xüsusilə də seçkilərdə xalqın səsini qazanmaq üçün müharibə bəyanatları verməyin təhlükəli olduğunu erməni liderlər də anlamamış deyillər. Ter-Petrosyan bu dəfə də elan edib ki, onlar parlament seçkilərinə Qarabağda sülh, barışıq və mehriban qonşuluq devizi ilə gedəcəklər, habelə bu devizləri dəstəkləyən digər siyasi qüvvələrlə blok yaramağa hazırdırlar. Düzdür, Sərkisyan və digərlərindən fərqli olaraq, Ter-Petrosyan adətən Qarabağla bağlı kompromislərə meylliliyi ilə seçilib. Ancaq onun rəqiblərinin də sülhdən bəhs etməsi Ermənistanın alternativinin olmadığını təsdiqləyir.

Qeyd edək ki, Ter-Petrosyanın liderlik etdiyi "Erməni Milli Konqresi" Partiyası indiyədək onunla müttəfiq olan Xalq Partiyası ilə birlikdə aprelin 2-nə təyin edilmiş parlament seçkilərində iştirak etməyi qərara alıb. Virtualaz.org AzadlıqRadiosunun erməni xidmətinə istinadla bildirir ki, iki partiyanın yaratdığı seçki blokunun namizədlər siyahısına eks-prezident Levon Ter-Petrosyan başçılıq edir. Siyahıda ikinci yerdə Xalq Partiyasının lideri Stepan Dəmirçiyandır.

"İndi "Erməni Milli Konqresi"nin cəmi bir partiya ilə blok yarada bilməsi Ter-Petrosyanın Qarabağda sülhə çağıran mövqeyi ilə bağlı ola bilərmi" sualına cavabında Levon Zurabyan deyib ki, səbəb bununla bağlı deyil. "Biz Ermənistan ətrafında, Dağlıq Qarabağ məsələsi ətrafında nələrin baş verdiyini analiz edirik, görürük ki, bu məsələdə, nəhayət, xalqa həqiqəti deməliyik. Biz bu həqiqəti özümüzün seçkiqabağı proqramımızın əsası kimi xalqa çatdıracağıq"-Zurabyan bildirib.

Göründüyü kimi, Qarabağ məsələsi Ermənistanın taleyini həll edən amilə çevrilib. S.Sərkisyanın ötən həftə "Dağlıq Qarabağla bağlı güzəştlərə hazırıq" bəyanatını verməsi də çoxgedişli kombinasiyanın tərkib hissəsidir. İşğalçı ölkə siyasətçiləri seçki kampaniyasına sülh mesajları ilə qatılmaqla həm də xaricdən dəstək almağa çalışırlar. Fakt budur ki, xarici amil Qarabağda dağıdıcı müharibənin tərəfdarı deyil və "nə hərb, nə sülh" durumunun qorunub saxlanmasına üstünlük verir. Bu mənada parlamentli respublikanın ali qanunverici orqanında çoxluğu əldə etməyə iddialı namizədlər "sülhməramlı" mövqedən çıxış etməklə böyük güclərin cazibəsini qazanmaq istəyirlər.

Ancaq bir məqamı da unutmamalıyıq: ATƏT-in Minsk Qrupunun həmsədrləri ötən ilin axırlarında İrəvanda olarkən onlara bildirilmişdi ki, Ermənistan heç nə qaytarmağa hazırlaşmır. İşğalçı ölkənin mətbuatı da bu mövzudan bəhs edərək yazmışdı ki, Ermənistanın yeni hökumətinin proqramına belə bir prinsip daxil edilib: "Bir qarış da olsun torpaq..." Bir qarış da torpaq qaytarmaq istəməyənlərin indi ağız-ağıza verib sülhdən danışması təbii ki, şübhələr doğurur.

**Politoloq Arzu Nağıyev də "Yeni Müsavat"a bildirdi ki, bütün bunlar hamısı seçkiqabağı siyasi gedişlərdir:** "Sərkisyan və onun komandası nəyin bahasına olursa-olsun Qarabağ klanının hakimiyyətdə qalmasına çalışacaq. Çünki bu onun gələcəkdə sığortalanması deməkdir. Məlumdur ki, əvvəlki seçkilərdə də onlar "Qarabağ kartı"ndan ustalıqla istifadə ediblər və hakimiyyəti bir-birilərinə ötürməklə məşğul olublar. Burada əsas məqam kimi separatçılara və millətçilərə müstəqillik söz verilmişdi və ordunun da kifayət qədər güclü olduğu mifi yaradıldı. Lakin bu gün bunların heç biri işləmir. Eyni zamanda vətəndaşlar öz övladlarını müharibəyə və ya hətta orduya belə getməyə qoymurlar. Maraqlısı da odur ki, həm Ter-Petrosyan, həm də Sərkisyan bu kartlardan istifadə edir".

**Ekspert də təsdiqləyir ki, erməni siyasətçilər Qərbin gözündə bir "sülhsevər", "humanist" imic yaratmaq üçün bu addımları atırlar:** "Bu gün Ermənistanda millətçilərlə bərabər həm də qərbyönümlü qüvvələr də var və seçkidə iştirak edəcəklər. Başqa bir faktor da Rusiya faktorudur. Bu gün Rusiya nəyin bahasına olursa-olsun Dağlıq Qarabağ probleminin həllinə çalışır, məqsəd həm nüfuz, həm də sülhsevər kimi ad qazanmaqdır. Bundan başqa, Rusiyanın hərbi bazalarının Ermənistan ərazisində yerləşməsi KTMT-nin üzvü belə olmasına baxmayaraq, Ermənistanda birmənalı qarşılanmır. İqtisadi məsələləri də ön palana çəkən seçicilər onsuz da dağılan büdcənin çox hissəsinin hərbi xərclərə getməsindən narazıdırlar. Məhz bütün bu faktorlar olduğu üçün namizədlər "sülh platforması"na daha çox üstünlük verirlər. Təbii ki, seçkilərdə, necə deyərlər, vəd və sonradan ona əməl etmək məsələsi var, bunu isə gələcək göstərəcək".

# Ermənilər müharibədən qorxduqlarını etiraf edir



## **Üzeyir Cəfərov:** "2017-ci ilin yanvar ayında Ermənistan ordusunun döyüş və qeyr-döyüş itkilərinin sayı az qala rekord həddə olub"

**"Şəxsi qənaətimə görə, dünyanın aparıcı dövlətləri sanki özlərinə söz veriblər ki, onlar nəyin bahasına olursa-olsun, Qarabağ düyününün açılmasına imkan verməyəcəklər. Belə pessimist düşünməyə bizə o əsas verir ki, 10 ildən artıq vaxt keçib və bu dövlətlər hələ də nə işğalçını öz adı ilə çağırdılar, nə də işğala məruz qalan Azərbaycanın haqlı tələblərinə məhəl qoyurlar. Bacardıqları da odur ki, boş və mənasız, daha çox status-kvonun saxlanmasına hesablanmış bir fəaliyyət sərgiləsinlər".**

**Hərbi ekspert Üzeyir Cəfərov bu fikirləri cəbhə xəttində yaşanan son gərginlikləri "Yeni Müsavat"a şərh edərkən bildirdi. Qeyd edək ki, düşmən işğal altındakı ərazilər və iki dövlətin sərhədləri boyunca təxribatçı əməllərini davam etdirir. Bir vətəndaşımızı girov götürən işğalçı son günlərdə təxribatlarının cavabını layiqli şəkildə alır və itkilər verir. Ermənistan siyasətçiləri sülh mesajları versələr də, cəbhədə gərginlik qalmaqda davam edir. Bu mənada hesab olunur ki, aprel savaşına bənzər hadisələr hər an yaşana bilər. Ü.Cəfərovun sözlərinə görə, belə şəraitdə, bizim xarici siyasətimiz daha da genişləndirilməli, ən xırda mötəbər tədbirdən tutmuş, ən böyük sammit və toplantılara kimi, Azərbaycan və onun müttəfiqləri bu məsələni davamlı şəkildə gündəmə gətirməli, Silahlı Qüvvələrin döyüş hazırlığını artırmaq məqsədi ilə təlim və məşqlərin sayını artırmalıdır:** "Eyni zamanda biz bəzi təxirəsalınmaz tədbirlər də həyata keçirməliyik ki, düşmənçilik siyasətindən əl çəkməyən Ermənistanın işğalçı ordusunu bundan da çox gərginlikdə saxlamalı, imkan düşdükcə onun atəşkəs rejimini pozmasına cavab olaraq maksimum maddi və mənəvi zərbə, zərər vurmalıyıq. Başqa yol artıq qalmır. Əgər danışıqlar heç bir nəticəyə gətirib çıxartmırsa, onda düşmən ordusunun təxribatlarına daha sanballı zərbələrlə mövqe ortalığa qoymalıyıq". **Ü.Cəfərov xatırlatdı ki, 2017-ci ilin geridə qalan yanvar ayı ərzində Ermənistan ordusunun döyüş və qeyr-döyüş itkilərinin sayı az qala rekord həddə olub:** "Əvvəlki illərə nisbətən həm işğal altında olan ərazilərdə, həm də Ermənistanın öz ərazilərində olan hərbi hissə və birləşmələrdə, hətta təhsil müəssisəsində ölüm, yaralanma halları çoxalıb. İş o yerə çatıb ki, özlərinin bədnam ordularının 25 illiyinə həsr edilmiş rəsmi tədbirdə Serj Sərkisyan ilk dəfə olaraq öz yüksək rütbəli zabit və rəis heyətlərində heç kimi nə orden-medallarla, nə də rütbələrlə mükafatlandırmadı. Bu da səbəbsiz deyildi. Narazılıq və cəmiyyətin nifrətinin, xüsusən də Ermənistan "Əsgər anaları" təşkilatının son aylar əsgər ölümlərinə, ordu sıralarında zorakılıq hallarına qarşı keçirdiyi etiraz aksiyalarının sayı və miqyası daha da genişlənir".

Doğrudur, ermənilər status-kvonun saxlanmasını daha faydalı saydıqları üçün böyük müharibədən çəkinirlər. Erməni siyasətçi David Şahnazaryan bugünlərdə Qarabağ münaqişəsi zəminində baş verəcək proseslərdən danışıb. "İstipress" erməni mediasına istinadən xəbər verir ki, Şahnazaryan müsahibəsində bildirib ki, əgər Qarabağda yeni müharibə başlasa, bunun qarşısını almaq mümkün olmayacaq. Siyasətçi ona görə müharibənin yolverilməz olduğunu deyib. Maraqlıdır ki, erməni ekspert ölkəsinin təhlükəsizliyinin təminatçısı kimi İranın rolunu qeyd edib. "Ermənistan müdafiə nazirinin İrana sonuncu səfəri zamanı bu ölkə ilə təhlükəsizliyimiz üçün yeni keyfiyyətlər aldığımızı düşünürəm" deyə Şahnazaryan qeyd edib. Jurnalistin ona "siz müharibənin yenidən başlaması ehtimalını görürsünüzmü" sualına Şahnazaryan birbaşa "müharibə başlasa, qarşısını almaq olmayacaq" cavabını verib. Siyasətçi 2017-ci ilin regionun təhlükəsizliyi üçün həlledici il olacağını bildirib. **Hərbi ekspert Ü.Cəfərov isə ermənilərin narahatlığını anlaşılan hesab edir. Ancaq bununla belə, daha tədbirli olmağımızı da vacib sayır:** "Əlbəttə ki, sonda bu, qaçılmaz olacaq. Təkcə zamanını və vaxtını yəqin ki, Azərbaycanın siyasi-hərbi rəhbərliyi müəyyən edəcək".

Müşahidə olunan budur ki, Ermənistanda müharibə eyforiyasını fərqli atmosfer əvəzləyib. Artıq düşmən ölkədə savaş tərəfdarlarının sayı ciddi şəkildə minimuma enib. Azərbaycan əhalisi isə Vətənin işğaldakı torpaqlarının azad olunmasına hər an hazırdır. Bunu keçirilən sorğular da, şəhid Çingiz Qurbanovun möhtəşəm dəfn törənindəki çıxışlar da təsdiqləyir. Beləliklə, iki ölkə arasındakı müqayisələrə rəğmən Azərbaycan üçün unikal şansın yarandığını söyləmək mümkündür.

Azərbaycan Respublìkasının Prezìdentì yanında Kütləvì İnformasìya Vasìtələrìnìn İnkìşafına Dövlət Dəstəyì Fondunun malìyyəsì əsasında. Səhìfənì hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 28 (6642) 8 fevral 2017

**Ölkə qanunvericiliyinə əsasən Azərbaycan Respublikasının vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığına mənsub olan şəxslər əcnəbilər hesab edilirlər. Əgər Azərbaycan Konstitusiyası, digər qanunlar və ölkənin iştirakçısı olduğu beynəlxalq müqavilələri ilə digər qaydalar müəyyən edilməyibsə, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ölkə vətəndaşları ilə bərabər bütün hüquqlardan və azadlıqlardan istifadə edə və bütün vəzifələri yerinə yetirə bilərlər.**



# 1000 manat ver, Azərbaycanda iş tap...

## Əcnəbilər üçün Azərbaycanda yaşamağın hüquqi şərtləri: hər şeyi pul həll etmir, nədən başlamalı?

Bəs Azərbaycan ərazisində müvəqqəti və daimi yaşama üçü əcnəbi nə etməlidir?

"Yeni Müsavat" qəzeti məsələ ilə bağlı qanunvericilik üzərində araşdırma aparıb.

Belə ki, ölkəyə gələn əcnəbi və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti Azərbaycan Respublikasının 14 iyun 1994-cü il tarixli "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında", 13 mart 1996-cı il tarixli "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında" və 22 dekabr 1998-ci il tarixli "İmmiqrasiya haqqında" Qanunları ilə tənzimlənir.

Qanunvericiliyə əsasən, viza əsasında Azərbaycana gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddəti vizada göstərilən qalma müddəti ilə müəyyən olunur. Viza tələb olunmayan qaydada Azərbaycana gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddəti 90 gündən artıq ola bilməz.

Azərbaycanda 30 gündən artıq yaşamaq istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər yaşayış yeri üzrə qeydiyyata alınma üçün yaşayış yerinə gəldiyi vaxtdan 3 gün ərzində (bazar və bayram günləri istisna olmaqla) Daxili İşlər Nazirliyinin müvafiq orqanında qeydiyyatdan keçməlidirlər.

Qeyd edək ki, yalnız xarici ölkələrin Azərbaycanda fəaliyyət göstərən diplomatik nümayəndəlik və konsulluqlarının, habelə beynəlxalq təşkilatların nümayəndəliklərinin əməkdaşları, inzibati-texniki xidmət heyətinə daxil olan şəxslər və onların ailə üzvləri, həmçinin Azərbaycana diplomatik missiya ilə və ya tərəfdar çıxdığımız beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda xüsusi missiya ilə səfər edən əcnəbilərin qeydiyyatı Xarici İşlər Nazirliyi tərəfindən aparılır, digərlər əcnəbilər isə Dövlət Miqrasiya Xidmətinə müraciət etməlidirlər.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ölkədə müvəqqəti olma və ya müvəqqəti yaşama müddətinin bitməsinə azı 22 iş günü qalmış müvəqqəti yaşamaq üçün icazə alınması ilə bağlı Dövlət Miqrasiya Xidmətinə müraciət edə bilərlər.

Bu hallarda əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti yaşamaq üçün icazə verilə bilər: birincisi, Azərbaycan vətəndaşı ilə yaxın qohumluq münasibətlərində olduqda və ya nikaha daxil olduqda, ikincisi, ölkə iqtisadiyyatına 500.000 manat məbləğində investisiya qoyduqda və ya yerli banklara 50.000 manat məbləğində pul vəsaiti qoyduqda, üçüncüsü, ölkə ərazisində əmək fəaliyyəti ilə məşğul olmaq üçün fərdi icazə aldıqda, təhsil müəssisələrində əyani təhsil aldıqda, eləcə də iqtisadiyyat, sənaye, müdafiə, mədəniyyət, idman, elm və digər sahələr üzrə yüksək səviyyəli mütəxəssis olduqda.

Azərbaycanda əmək fəaliyyəti ilə məşğul olmaq istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər fərdi icazənin verilməsi ilə bağlı qeyd olunan müddətdə işə götürən vasitəsilə Dövlət Miqrasiya Xidmətinə müraciət edə bilərlər. Əməkçi miqrantın ölkəmizdə müvəqqəti yaşamasına hüquq verən müvafiq vəsiqə fərdi icazənin qüvvədə olduğu müddətə verilir.

İcazə almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər



Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş müvafiq vəsiqələr əsasında yaşamalarını, yaşayış yeri üzrə qeydiyyatlarını rəsmiləşdirmiş olurlar.

Əcnəbilər yaşayış yerini dəyişərək yeni yaşayış yerinə gəldikdən sonra 10 gündən gec olmayaraq qeydiyyata alınması üçün yenidən Dövlət Miqrasiya Xidmətinə müraciət etməlidirlər. Müvəqqəti yaşamaq üçün icazə onun verilməsinə əsas olan qanunvericiliklə müəyyən edilmiş hallar mövcud olduğu müddətdə qüvvədədir.

Ən azı 2 il Azərbaycan Respublikasında qanuni əsaslarla müvəqqəti yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasında daimi yaşama hüququ (immiqrant statusu) verilə bilər.

Müvəqqəti yaşam hüququ olan əcnəbi ölkə ərazisində sərbəst hərəkət etmək və yaşayış yeri seçmək, əmək fəaliyyəti ilə məşğul olmaq, şəxsi toxunulmazlıq, mənzil toxunulmazlığı, investisiya və sahibkarlıq fəaliyyəti, istirahət etmək, sağlamlığın qorunması, təhsil almaq, vicdan azadlığı kimi hüquq və azadlıqlara malikdirlər.

Lakin əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dini təbliğat apara bilməz, siyasi partiyalara üzv ola bilməzlər.

Əcnəbilərə müvəqqəti yaşamaq hüququ verilməsi ilə bağlı dövlət rüsumları da var, belə ki, ölkədə müvəqqəti olma müddətinin uzadılması barədə qərarın verilməsinə görə, 30 manatdan 90 manatadək, müvəqqəti yaşamaq üçün icazə vəsiqəsinin verilməsinə və müddətinin uzadılmasına görə 30 manatdan 120 manatadək, ölkə ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün fərdi icazənin alınmasına və müddətinin uzadılmasına görə 1000 manat dövlət rüsumu ödənilməlidir.

"Yeni Müsavat"a açıqlamasında qanunvericiliyi şərh edən hüquqşünası Əkrəm Həsənov bildirdi ki, əcnəbilərə qarşı münasibətdə nəinki Türkiyə vətəndaşlarına, Gürcüstan vətəndaşı olan azərbaycanlılara belə fərq qoyulmur. Onlar da əcnəbilər kimi eyni prosedurları keçmək məcburiyyətindədirlər: "Vizada qeyd olunan müddətdən artıq qalmaq istəyən əcnəbilər Dövlət Miqrasiya Xidmətindən müvəqqəti yaşamaq üçün icazə almalıdırlar. Ancaq burada işləmək də istəyirsə, əcnəbinin özü tərəfindən deyil, onu işə götürən şəxs tərəfindən Dövlət Miqrasiya Xidmətindən işləmək üçün ayrıca icazə alınmalıdır. Bunun dövlət rüsumu 1000 manatdır. İcazə bir illik verilir və hər il təzələnməlidir. Əgər həmin əcnəbi özü sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyirsə, ölkə iqtisadiyyatına 500 min manat yatırım etməlidir və onun açdığı şirkətin işçilərinin müəyyən faizi gərək Azərbaycan vətəndaşları olsun".

Ekspert hesab edir ki, Türkiyə vətəndaşlarına və əslən azərbaycanlı olan əcnəbilərə münasibətdə qanunvericilikdə daha sadə şərtlər müəyyənləşdirilsə, yaxşı olar.

**Əmək Hüquqları Müdafiə Liqasının rəhbəri Sahib Məmmədov isə "Yeni Müsavat"a açıqlamasında əcnəbilərin Azərbaycanda əmək fəaliyyəti ilə məşğul olmasının hüquqi şərtlərindən danışdı:** "Miqrasiya Məcəlləsində əmək miqrasiyası ayrıca tənzimlənir. Əcnəbi vətəndaş və ya Gürcüstandakı həmvətənlilərimiz, vətəndaşlığı olmayan şəxslər burada əmək fəaliyyətini davam etdirmək üçün işəgötürən şəxs tərəfindən Dövlət Miqrasiya Xidmətinə müraciət edilməlidir, iş icazəsi almalıdır. İş icazəsinin müddəti 1 ildir və dövlət rüsumu 1000 manatdır. Məhz bundan sonra işəgötürənlə əcnəbi arasında əmək müqaviləsi imzalana bilər. İş icazəsinin verilməsi üçün bir çox şərtlər var. Əsas şərt isə odur ki, həmin işə Azərbaycan vətəndaşı iddia etməmiş olsun. Praktikada bəzən bu məsələdə problemlər yaranır. Ancaq qanunda istisnalar da var. Xüsusi ekspertlər, alimlər, idman məşqçiləri və sair bu kimi şəxslər iş icazəsi olmadan da müvafiq icra hakimiyyəti orqanının dəvəti əsasında gələ bilər. Azərbaycanda illik 9000 nəfər kvota müəyyən olunub. Ancaq statistika göstərir ki, Azərbaycanda yaşayan hər 7 nəfər əcnəbidən yalnız biri iş icazəsi alıb. Qalanlar qeyri-formal əmək bazarının iştirakçılarıdır. Belə hallar müəyyən olunduqda işəgötürəni böyük miqdarda- 30 min manatdan yuxarı cərimə gözləyir, əcnəbi şəxs isə ölkədən deportasiya edilir".

❑ **Nərgiz LİFTİYEVA**

## Gözləri tutulmaqda olan gəncdən nazirə ürək dağlayan müraciət

**"Bu məktubu dostuma yazdırdım. Özüm görmürəm ki, yaza bilim. Gözlərim artıq görmür. Xahiş edirəm dərdimi Səhiyyə Nazirliyinə çatdırın. Belə getsə, 2 gözüm kor olacaq. Ona görə rica edirəm səhiyyə nazirimiz məni xilas etsin" - bu sözləri redaksiyamıza göndərilən məktubda Şirvan sakini, 18 yaşlı Böyükağa Qadir oğlu Dəmirovun adından dostu yazıb. Məktubda bildirilir ki, B.Dəmirovun uşaq vaxtından gözü zəif görüb. Ötən ilin oktyabrında Şirvan şəhər Səfərbərlik və Hərbi Çağırış Şöbəsinə çağırılıb. Gözü görmədiyinə görə onu noyabrda Bakıya, Zərifə Əliyeva adına göz xəstəxanasına müayinə olunmaq üçün göndəriblər. Müayinə zamanı həkimlər ona təcili əməliyyata ehtiyacı olduğunu bildiriblər. Qeyd ediblər ki, əməliyyat olunmasa hər iki gözü tutulacaq, kor olacaq.**

B.Dəmirov məktubda qeyd edir ki, müayinə zamanı ona əməliyyat olunmaq üçün 1500 manat pul lazım olduğunu da söyləyiblər: "Xəstəxanadan qayıdıb gəldim. Ailəmin o qədər pulu yoxdur. Ailəmiz üçün həmin məbləğ çox böyük puldur. Həmin pulu ailəmizin tapmasının mümkünsüz olduğunu da bilirəm. Ona görə çarəsiz qaldım. Düşündüm ki, bəlkə gözüm sağalar. Amma bu gün artıq sol gözüm tamam görmür, sağ gözüm də son dərəcə zəifləyib. Səhiyyə naziri Oqtay Şirəliyevə müraciət edərək xahiş edirəm gözlərimin kor olmasına imkan verməsin. Atam Çernobıl müharibəsi iştirakçısıdır, 147 manat təqaüd alır. Anam evdar qadındı, heç yerdə işləmir. Yeni ailəmin mənim gözümü əməliyyat elətdirmək üçün 1500 manat əldə eləməsi mümkün deyil. Belə getsə, 2 gözüm kor olacaq. Ona görə rica edirəm səhiyyə nazirimiz məni xilas etsin".

❑ **E.MƏMMƏDƏLİYEV**

**Türkiyədə fevralın 6-da zəlzələ olub. Zəlzələ fevralın 7-də də səhər saatlarında bir daha təkrarlanıb. Zəlzələ ilk olaraq Türkiyədə Egey dənizi sahillərində 5,3 bal gücündə baş verib. Yeraltı təkanların mərkəzi Çanaqqala bölgəsinin Ayvacık qəsəbəsində, ocağı isə 6,6 km dərinlikdə yerləşib. Qeyd edək ki, Türkiyənin Çanaqqala vilayətində ötən gün daha iki zəlzələ olub. 5,3 4,4 bal gücündə olan yeraltı təkanlar nəticəsində 11 kənddə 110 evə ziyan dəyib, 5 nəfər xəsarət alıb. Gülpınar kəndində bəzi evlərin divarları uçub. İlkin məlumata əsasən, təbii fəlakət nəticəsində xeyli heyvan tələf olub. İnformasiyaya əsasən, zəlzələ İzmir, Bursa və İstanbulda da hiss edilib. Zəlzələ Çanaqqala vilayətində 5,2 bal gücündə baş verib.**

# Bakıda zəlzələ təhlükəsi-seysmoloq danışdı

## Qurban Yetirmişli: “Türkiyədəki seysmik aktivliyin Azərbaycana heç bir təsiri ola bilməz”





Qeyd edək ki, Azərbaycanda Qaradağ rayonunda da “Otmanbozdağ” vulkanında 2 dəfə vulkan püskürməsi baş verib. Həmçinin fevralın 6-da yerli vaxtla saat 17:46:39-da Xəzər dənizində zəlzələ qeydə alınıb. Zəlzələ hiss olunmayıb. Zəlzələnin maqnitudası 4.4, dərinliyi 60 km olub. Yerli vaxtla saat 22:32:45-də isə Qobustandan 23 kilometr cənub-qərbdə, Şamaxı rayonu ərazisində zəlzələ qeydə alınıb. Yeraltı təkanın maqnitudası 3, dərinliyi 12 km olub. Zəlzələ hiss olunmayıb.

Türkiyədə baş verən zəlzələlər seysmik zonanın aktivliyindən xəbər verir. Maraqlıdır, Türkiyədə davamlı olan bu zəlzələlər Azərbaycana da gələ bilərmi? İnsanların təlaşına bir əsas varmı?

**Respublika Seysmoloji Mərkəzinin direktoru Qurban Yetirmişli Türkiyədəki zəlzələlərin Azərbaycana heç bir təsirinin olmadığını dedi:** “Türkiyədəki seysmik aktivliyin Azərbaycana heç bir təsiri ola bilməz. Azərbaycanda Xəzərdə, Şamaxıda olan zəif təkanlardır. Elə gün olmur ki, gün ərzində 15-20 dənə təkanlar olmur. Sadəcə olaraq, biz maqnitudası 3-dən yuxarı olanları saytımızda yerləşdiririk. Xırda təkanları isə yerləşdirmirik. Bu o demək deyil ki, Türkiyədə baş verən zəlzələ Azərbaycan ocaqlarına da təsir göstərəcək və aktivləşmə olacaq. Zəlzələ hər gün olur. Sadəcə olaraq, elə bir əsas yoxdur ki, deyək ki, hansısa bir zəlzələ ocağında, bölgədə güclü aktivləşmə gedir və parametrlər dəyişir. Belə bir şey yoxdur”.

**Ekoloq Telman Zeynalov isə bildirdi ki, baş verən palçıq vulkanları təbiətimizdə sərvətin çox olduğunu göstərir:** “Bir il ərzində 2 mindən çox xırda zəlzələ baş verir. Türkiyə ilə Azərbaycan arasında məsafə çox böyükdür. Zəlzələ əsasən o yerlərdə olur ki, o region hələ tam inkişaf etməyib. Məsələn, Böyük Qafqaz, Kiçik Qafqaz tam inkişaf etməyib, hələ hərəkətdədir. Ona görə də burada zəlzələ, palçıq vulkanları hərəkətə gəlir. Palçıq vulkanı baş verib. Bu bizim yerin altındakı var-dövlətdən xəbər verir. Böyük Qafqaz seçmə dağları, Orta Asiyaya düşüb Çinə, Yaponiyaya qədər gedir. Biz bu zonaya aidik. Türkiyə isə tamamilə başqa zonaya aiddir. Azərbaycanda 2 mindən çox xırda təkanlar olyacaq”.

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin “Bakı və Abşeron yarımadasının palçıq vulkanları qrupu Dövlət Təbiət Qoruğu”nun direktoru Ceyhun Paşayev** mətbuata açıqlamasında “Otmanbozdağ” vulkanının yerləşdiyi ərazidə müvafiq ölçmə işlərinin aparıldığını deyib. Mütəxəssisin sözlərinə görə, ərazidə ümumən xaric olmuş direksiya qatının həcmi, qalınlığı, istiqaməti, yaranmış çatların istiqaməti və uzunluğu öyrənilir. C.Paşayev bildirib ki, vulkan püskürməsi zamanı yanan palçıq deyil, vulkan boğazında illərlə toplanan qaz kütləsidir, yəni yanan metan qazıdır. Baş verən vulkan püskürməsi hadisəsi nəticəsində alov sütununun hündürlüyü 200-250 metrə qədər qalxıb. Palçıq tullantıları təxminən 10-12 hektar ərazini əhatə edir, uzunluğu isə 350 metrdən artıqdır. Ərazidə cənub-qərb istiqamətində olan, uzunluğu 3-4 metrə çatan dərin çatlar var. O əlavə edib ki, vulkan baş verəndən sonra zəlzələlərin olması təsadüfi deyil, çünki palçıq vulkanlar bilavasitə zəlzələlərlə bağlıdır: “Yəni zəlzələ sa da, insanlar onu hiss etmir. Ancaq palçıq vulkanları təbiətimizdə sərvətin çox olduğunu göstərir. Hazırda alimlər bu vulkan üzərində araşdırma aparırlar ki, yerin altında Azərbaycanın gələcəyi üçün hansı var-dövlət var. Millətimiz tam sakit və rahat ola bilər ki, Türkiyədəki zəlzələlərin bizə heç bir təsiri olma- palçıq vulkanını oyadan amildir. Palçıq vulkanının oyanmasına səbəblərdən biri zəlzələlərdir”.

**AMEA-nın Geologiya İnstitutunun Palçıq vulkanizmi şöbəsinin müdiri, geologiya-mineralogiya elmləri doktoru, professor Adil Əliyev isə milli.az-a açıqlamasında Azərbaycandakı vulkanların 60 faizinin aktiv olduğunu bildirib. Azərbaycanda vulkanlarının sayının çox olduğunu deyən A.Əliyev qeyd edib ki, həm Şərqi Azərbaycan ərazisində, həm də Cənubi Xəzərin akvatoriyasında 350-dən çox palçıq vulkanı var:** “Palçıq vulkanlarının 60 faizi aktivdir. Lakin bu aktivlik püskürmənin aktiv olması ilə bağlı deyil. Bu vulkanlar püskürməsə də, Yer səthinə daim qaz, palçıq, lehmə, minerallaşmış su çıxarır. Ancaq bəzi vulkanlar vaxtaşırı püskürür”.

**Azərbaycanda vulkanların daha çox Qobustanda yerləşdiyini, burada 100-dən çox palçıq vulkanının olduğunu deyən A.Əliyev qeyd edib ki, hər il Azərbaycanda, xüsusilə Cənubi Qobustanda 2-5 püskürmə hadisəsi baş verir. Alimin sözlərinə görə, keçmişdə elə illər olub ki, il ərzində hətta 10-dan çox püskürmə baş verib. A.Əliyev deyib ki, bu püskürmələr seysmik hadisələrlə - zəlzələlərlə əlaqədardır:** “”Otman Bozdağ" vulkanında püskürmə 2 fazada olub. Zəlzələ kimi vulkanın püskürəcəyi haqqında əvvəlcədən dəqiq məlumat söyləmək olmaz. Vulkan püskürməsinin və zəlzələnin nə vaxt olacağını heç bir mütəxəssis deyə bilməz. Hər püskürmə də eyni formada olmur. Birində qaz çıxır, qaz alovlanır, digərində böyük həcmdə palçıq tullanır".

Qeyd edək ki, dünyanın ən böyük palçıq vulkanlarından olan “Otman Bozdağ” Qaradağ dəmiryol stansiyasından 5 km şimal-qərbdə yerləşir. Vulkanın diametri 300 metrdir. Onun səthində 100-dən artıq qrifon var. Bu zamana qədər 3 püskürmə - 22 yanvar 1845-ci ildə, 1951-ci il və 10 oktyabr 1961-ci ildə qeydə alınıb.

❑ **Günel MANAFLI**



# Yenə qar yağacaq

**Bu günlərdə ölkənin əksər bölgələrinə, Bakıya intensiv qar yağdı. Bir neçə gün yağan qarın nəticəsində nəqliyyat vasitələrinin hərəkətində sıxlıq yaşandı, bəzi məktəblərdə dərslər təxirə salındı. Hətta qarlı hava şəraiti ilə əlaqədar olaraq futbol üzrə Azərbaycan I Divizionunda XIV turun bir neçə oyunu təxirə salınaraq vaxtı dəyişdirildi. Bəs qarşıda bizi yenidən qar gözləyirmi?**

Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin rəhbəri Telman Zeynalov məsələ ilə bağlı “Yeni Müsavat”a açıqlama verib:

“Fevral ayında yenidən qar gözlənilir. Hazırda Kiçik Çillədir və bu həmişə özünü göstərir. Qar bir dəfə yağacaq və bununla da bitəcək. Ayın 20-dən sonra torpaq dirçəlir, oyanır. Bu zaman istər qar, istər yağış yağanda torpağı münbitləşdirir. Ola bilsin ki, hava bir qədər soyusun, amma mənfi dərəcədə olmayacaq. Amma rayonlarda hava şaxtalı, yağıntının miqdarı çox ola bilər. Bir daha qeyd edirəm ki, bu rayonlarda da qarın, yağışın yağması kənd təsərrüfatı üçün müsbət haldır”.

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun direktor müavini Gülşad Məmmədovada yaxın günlərdə sulu qar, qar yağacağını qeyd edib:**

“Artıq bir neçə gündür ki, ölkə ərazisində hava nisbətən mülayim, yağmursuz keçir. Lakin fevralın 8-i gündüz şimal rayonlarından başlayaraq, ayın 11-dək hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış, sulu qar, qar yağacağı gözlənilir. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 4-8° aşağı enəcək. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Əsasən dağlıq və dağətəyi rayonlarda yolların buz bağlama ehtimalı var”.

❑ **Xalidə GƏRAY**



# Fevralın 11-də Ay tutulacaq

**Fevralın 11-də alimlər Ay tutulmasının baş verəcəyi barədə xəbərdarlıq ediblər. Bu kosmik hadisənin ardınca səmada “Yeni il kometası” adlandırılan 45R kometası görünəcək. Həmin göy cismi Yer kürəsindən maksimal yaxın məsafədə olacaq.**

AzərTAc xəbər verir ki, Ay tutulması Günəşin, Yer kürəsinin və Ayın bir xətt üzrə düzülməsi, yəni Yerin Ay və Günəş arasında olduğu an baş verir. Ay Yerin kölgəsinə daxil olanda tam, yarımkölgəsinə daxil olanda isə yarımçıq tutulur.

Ay tutulması hadisəsini Avropa, Afrika və Qərbi Asiya sakinləri müşahidə edə biləcəklər.